e-ISSN: 2789-6919

# Elmi Tədqiqat

Beynəlxalq Elmi Jurnal

# Scientific Research

International Scientific Journal

## ELM VƏ TƏHSİLİN ƏSASLARI
## XIV BEYNƏLXALQ ELMİ KONFRANS

## FUNDAMENTALS OF SCIENCE AND EDUCATION
## XIV INTERNATIONAL SCIENTIFIC CONFERENCE

# ELMİ TƏDQİQAT

**Beynəlxalq Elmi Jurnal**

---

**ELM VƏ TƏHSİLİN ƏSASLARI**

**XIV BEYNƏLXALQ ELMİ KONFRANS**

https://doi.org/10.36719/2789-6919/2025/XIV

# SCIENTIFIC RESEARCH

**International Scientific Journal**

---

**FUNDAMENTALS OF SCIENCE AND EDUCATION**

**XIV INTERNATIONAL SCIENTIFIC CONFERENCE**

**(01.07.2025)**

**Bakı – Baku**

**2025**

## Beynəlxalq indekslər / International Indices

**e-ISSN: 2789-6919**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© aem.az
© info@aem.az

# TƏŞKİLAT KOMİTƏSİ

## Sədr

**Prof. Dr. Elçin İBRAHİMOV**, Qarabağ Universiteti / Azərbaycan

## Sədr müavinləri

**Prof. Dr. Təranə HACIYEVA**, Bakı Mühəndislik Universiteti / Azərbaycan

**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa

## Məsul katib

**Assos. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

## ÜZVLƏR

**Prof. Dr. Kərim ŞÜKÜROV**, AMEA A. A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Əziz SANCAR**, Çapel-Hill Şimali Karolina Universiteti / ABŞ
**Prof. Dr. Vaqif ABBASOV**, ARETN Akademik Y. H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Səyyarə İBADULLAYEVA**, ARETN Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Rüfət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. Leyla İMAMƏLİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Dünya BABANLI**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet KARATAŞ**, Necmettin Erbakan Universiteti / Türkiyə
**Prof. Dr. Əkbər AĞAYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya

**Prof. Dr. Yaqub BABAYEV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Yasin BABAYEV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Turhan ÇETİN**, Qazi Universiteti / Türkiyə
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Andrei VOLODIN**, Regina Universiteti / Kanada
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Anar KAZIMOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya Tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Zahid MƏMMƏDOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV,** Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Mehriban İMANOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səbinə TANRIVERDİYEVA,** Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA,** Qarabağ Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sadıq QARAYEV,** ETN, Botanika İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA,** Bakı Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**PhD Tomas SMEDLEY,** Cenevrə Kolleci, Pensilvaniya / ABŞ

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof. Dr. Elchin IBRAHIMOV,** Karabakh University / Azerbaijan

### Deputy chairmen

**Prof. Dr. Tarana HAJIYEVA,** Baku Engineering University / Azerbaijan

**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland

### Executive secretary

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan

### MEMBERS

**Prof. Dr. Karim SHUKUROV,** ANAS Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Aziz SANJAR,** University of North Karolina at Chapel Hill / USA
**Prof. Dr. Vagif ABBASOV,** Institute of Petrochemical Processes named after Academician Y. H. Mammadaliyev of MSERA / Azerbaijan
**Prof. Dr. Sayyara IBADULLAYEVA**, Institute of Botany of MSERA / Azerbaijan
**Prof. Dr. Nikolay BRIKO,** First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Rufat RUSTAMOV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Faxraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Arzu SARDARLI,** First Nations University of Canada / Canada
**Prof. Dr. Jihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Leyla IMAMALIYEVA**, Baku Slavic University / Azerbaijan
**Prof. Dr. Haji HASANOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS/ Azerbaijan
**Prof. Dr. Dunya BABANLI**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Mehmet KARATASH**, Nejmettin Erbakan University / Turkey
**Prof. Dr. Akbar AGHAYEV**, Sumgayit Statet University / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "Silk Road" International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia

**Prof. Dr. Yagub BABAYEV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Yasin BABAYEV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Turhan CHETIN**, Gazi University / Turkey
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Andrei VOLODIN**, Regina University / Canada
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Anar KAZIMOV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Jeyran MAHMUDOVA,** Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Nadir ILHAN,** Ahi Evran University / Turkey
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Saodat MUKHAMEDOVA,** Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan
**Prof. Dr. Maharram MAMMADLI,** Baku State University / Azerbaijan
**Prof. Dr. Yagut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Irada HUSEYNOVA,** Baku State University / Azerbaijan
**Prof. Dr. Garib MURSHUDOV,** Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Zahid MAMMADOV,** Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Mehriban IMANOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj RUINTAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Urfan HASANOV,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sabina TARVERDIYEVA,** Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Leyla ALIYEVA,** Karabakh University / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU,** Baku Engineering University / Azerbaijan
**Assoc. Prof. Dr. Sadiq GARAYEV**, Institute of Botany of MSERA/ Azerbaijan
**Assoc. Prof. Dr. Irada KARIMOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan

**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**PhD Thomas SMEDLEY,** Geneva College in Beaver Falls, Pennsylvania / USA

https://doi.org/10.36719/2789-6919/2025/XIV

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
# HUMANITIES AND SOCIAL SCIENCES

**Ayşən Məmmədrzayeva**
S.Məmmədova adına 110 №-li
tam orta məktəb, Qaradağ rayonu
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0006-9899-9757
zeyd.mammadov.11@mail.ru

## Ədəbiyyatın elm sahəsi kimi təhsildə rolu: şəxsiyyətin formalaşmasına elmi və pedaqoji baxış

***Açar sözlər:*** *təlim, tərbiyə məsələləri, ədəbiyyat, təhsil, şagird*
***Keywords:*** *upbringing, problem of upbringing, literature, education, pupil*

Müasir dövrdə təhsilin məqsədi yalnız informasiya ötürmək deyil, eyni zamanda yaradıcı, tənqidi düşünən, milli və bəşəri dəyərlərə sahib şəxsiyyət yetişdirməkdir. Bu kontekstdə ədəbiyyatın elm sahəsi kimi təhsildə rolu danılmazdır. Ədəbiyyat, insanın mənəvi dünyasını, düşüncə tərzini və sosial davranış modelini formalaşdıran mühüm vasitə olmaqla yanaşı, həm də elmi analizin və nəzəri təhlilin obyekti kimi çıxış edir. Ədəbiyyat yalnız estetik zövq formalaşdırmır, həm də həyatın psixoloji qatlarını öyrətməklə, insana özünü və cəmiyyəti dərk etməyə kömək edir. Filologiyanın əsas qolunu təşkil edən ədəbiyyatşünaslıq, mətnin strukturunu, semantikasını və mədəni-tarixi kontekstlərini araşdırmaqla ədəbiyyatı bir elm

https://doi.org/10.36719/2789-6919/2025/XIV

kimi təhlil edir. Bu baxımdan, təhsil prosesində ədəbiyyatın yalnız məlumatverici deyil, tərbiyəvi və dünyagörüşü inkişafetdirici funksiyaları ön plana çıxır. Təhsil sistemində elmi yanaşma-mətnin strukturu, anlam qatları və kontekstual əlaqələr-tənqidi düşüncə və analitik qabiliyyətin inkişafına zəmin yaradır. Ədəbiyyat çox zaman yalnız emosional təsir vasitəsi, estetik zövq formalaşdıran sahə kimi qəbul edilsə də, əslində onun elmi və pedaqoji potensialı müasir təhsil sistemində əvəzsiz rol oynayır. Ədəbiyyat, insan həyatının, cəmiyyətin və fərdi psixologiyanın müxtəlif mərhələlərini dərinliklə təhlil edən çoxqatlı bir intellektual sistemdir. Bu səbəbdən ədəbiyyat həm sənət, həm də elm sahəsi olaraq özünəməxsus statusa malikdir. Ədəbiyyatşünaslıq - ədəbiyyatın nəzəri əsaslarını, janrlarını, üslub və bədii strukturunu, ideya-məzmun qatlarını tədqiq edən bir elm sahəsidir. Bu elm müxtəlif metodoloji yanaşmalara – strukturalizm, hermenevtika, semiotika, diskurs təhlili və s. əsaslanaraq, ədəbi mətnin sadəcə oxunması ilə kifayətlənmir, onun tarixi, mədəni, sosial və psixoloji bağlamlarının elmi təhlilini zəruri edir. Ədəbiyyat həm də digər humanitar sahələrə - fəlsəfə, tarix, psixologiya, sosiologiya və dilçiliklə qarşılıqlı əlaqə içində inkişaf edir. Bu interdisiplinar xarakter ədəbiyyatı geniş elmi araşdırma sahəsinə çevirir. Elmi düşüncə tərzinin formalaşmasında ədəbiyyatın bu çoxşaxəli təbiəti mühüm rol oynayır.

Digər tərəfdən, ədəbiyyat həm də fərdi təcrübələrin ümumiləşdirilməsi, həyatın mənasının axtarışı və insan varlığının təhlili ilə məşğul olduğu üçün fəlsəfi mahiyyət daşıyır. Bu isə onun elmi dəyərini və təhsildəki tərbiyəvi gücünü daha da artırır. Təhsil prosesinin əsas məqsədi yalnız bilik ötürmək deyil, həm də şagirdin şəxsiyyət kimi formalaşmasına, mənəvi-əxlaqi dəyərlərlə zənginləşməsinə və tənqidi düşüncə qabiliyyətinin inkişafına nail olmaqdır. Bu məqsədlərə

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

çatmaqda ədəbiyyatın rolu əvəzolunmazdır. Ədəbiyyat insanın daxili aləmini kəşf etməyə, empati qurmağa, həyatı və insan münasibətlərini daha dərindən anlamağa imkan yaradan vasitədir. Ədəbiyyatın təhsildəki funksiyalarını aşağıdakı istiqamətlər üzrə qruplaşdırmaq olar:

1.Estetik-tərbiyəvi funksiya - ədəbiyyatın bədii təsvir vasitələri insanda gözəllik duyumunu, estetik zövqü formalaşdırır. Klassik və müasir ədəbiyyat nümunələri vasitəsilə şagirdlər həyat, sevgi, fədakarlıq, ədalət, qəhrəmanlıq və digər mənəvi dəyərləri tanıyır, mənimsəyir. Bu proses insanın daxili aləminin zənginləşməsinə və şəxsiyyətin bütövləşməsinə xidmət edir.

2.İdraki və dünyagörüş formalaşdırıcı funksiya - ədəbi mətnlər müxtəlif dövrləri, xalqları, mədəniyyətləri və insan xarakterlərini əks etdirir. Bu isə şagirdin dünyagörüşünün genişlənməsinə səbəb olur. Ədəbiyyat vasitəsilə tarixə, mədəniyyətə, psixologiyaya, fəlsəfəyə münasibət formalaşır. İnsan özünü cəmiyyətin bir hissəsi kimi dərk edir.

3.Dil və ifadə bacarığının inkişafı - ədəbiyyat həm də dilin ən gözəl, ən zəngin formasıdır. Ədəbiyyat nümunələrinin təhlili zamanı şagirdlər dilin incəliklərinə bələd olur, ondan poetik istifadə imkanlarına malik olurlar. Ədəbiyyatın tədrisi yalnız mətnin məzmununun ötürülməsi ilə kifayətlənməməlidir. Ədəbi əsərlərə elmi-metodoloji yanaşma, onların bədii strukturu, ideya-estetik dəyəri və kontekstual anlamı əsasında qurulduqda şagirdlərdə dərin düşüncə təfəkkürü formalaşır. Tədris prosesində ədəbiyyata elmi baxış, həm müəllimin yanaşma tərzini, həm də şagirdin mətnlə münasibətini keyfiyyətcə dəyişdirir. Müasir kurikulumlarda ədəbiyyat fənninin məqsədi yalnız mətnləri öyrətmək deyil, şagirdin idraki və emosional inkişafına yönəlik fəaliyyətlərin təşkili ilə onun şəxsiyyətinə təsir göstərməkdir. Bu məqsədlə kurikulumda təqdim edilən ədəbi nümunələrin seçimi, təqdimat forması və təhlil

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

yanaşmaları elmi əsaslara söykənməlidir. Mətndəki simvolizm, metaforik qat, ideoloji məna və estetik təcəssüm şagirdə yalnız informativ deyil, intellektual və mənəvi təsir də göstərməlidir. Ədəbi mətnlərin tədrisində istifadə olunan metodlar-problemli təhlil, kontekstual oxu, assosiativ düşüncə, diskussiya və müqayisəli yanaşma – məzmunun şagird tərəfindən mənimsənilməsini, onun fərdi münasibətinin formalaşmasını təmin edir. Mətnin yalnız informativ deyil, semantik və fəlsəfi qatlarını açmaq üçün bu cür elmi yanaşmalar zəruridir. Beləliklə, aparılan təhlillər göstərir ki, ədəbiyyat təkcə bədii-estetik zövq formalaşdıran sahə deyil, həm də zəngin elmi potensiala malik olan mühüm bir elm sahəsidir. Onun təhsildəki funksiyaları-şəxsiyyətin formalaşması, dünyagörüşün genişlənməsi, analitik və yaradıcı düşüncənin inkişafı – ümumtəhsil sisteminin məqsədləri ilə bilavasitə əlaqəlidir. Ədəbiyyat insana özünü və cəmiyyəti dərk etmək üçün imkan yaradır, bu da onun müasir pedaqoji mühitdə əvəzolunmazlığını bir daha sübut edir. Ədəbiyyatın tədrisi yalnız məzmun ötürmək yox, həm də düşüncə formalaşdırmaqdır, bu isə onun tədrisində elmi yanaşmanı, nəzəri təhlil bacarıqlarını və metodoloji əsasları zəruri edir. Müəllim hazırlığında və kurikulum tərtibində bu amillərin nəzərə alınması təhsilin keyfiyyətinə əhəmiyyətli təsir göstərir.

https://doi.org/10.36719/2789-6919/2025/XIV

**Zumradkhan Khatamova**
Central Asian Medical University
https://orcid.org/0009-0001-4058-2194
zumradkhankhatamova@gmail.com

# The Problem of Income on the Foundation Properties in the Financial System of the Kokand Khanate

***Keywords:*** *endowment, finance, income, mosque, officials*
***Açar sözlər:*** *vəqf, maliyyə, gəlir, məscid, məmurlar*

It is known from the sources that although the party with the advantage in obtaining income through waqf properties in the Kokan Khanate had a direct and indirect negative effect on the total income of the state, the rulers of the country supported the expansion and development of waqf properties as much as possible (Troitskaya, 1969). Based on the analysis of archival documents, it was found that the categories of people who can receive financial income through endowments are the following:

- High-ranking scholars and clergy (who received large financial income through various waqf institutions). For example, scholars worked in waqf institutions in positions such as mudarris, mutawalli, imam, qari, and personally received a certain percentage (10%) of waqf income (Nalivkin, 1886). It reveals the distribution of funds and the directions of expenditure.

-The fact that waqf properties in the khanate had two levels, that is, waqf properties could be exempt from state taxes (in a privileged state), or they could exist under tax. Therefore, financially privileged classes, including the powerful, owners of

https://doi.org/10.36719/2789-6919/2025/XIV

suyurgol, tarkhans, and sole proprietors, were completely or partially exempt from state taxes. This situation indicates that there was a policy of tax privileges in the Kokand financial system (Ivanov, 1937). The income from the personal property of the above-mentioned officials, or rather, representatives of the class, remained in their own hands, without reaching the state treasury. Of course, this led to a reduction in taxes for the state finances. Officials related to the financial system of Kokand Khanate (hokims, mutavallis, elders) used their functions in the waqf and tax system and received financial benefits. This situation shows a system where financial decentralization, personal enrichment through positions is possible.

In several sources related to the history of the Kokand Khanate, the issue of complete exemption from taxes and obligations of the property converted into a waqf is mentioned. Only the ruler himself had the right to completely exempt the properties turned into waqf from taxes and duties (Khatamova, 2021). This situation indicates that the waqf properties were not considered as a source of tax in the state financial system, but as a socio-spiritual resource exempt from tax. This determines the dual importance of the waqf institution in the formation of the state budget. The first shows that it was not a source of income, and the second - it was manifested as a private fund managed by donations. A deeper analysis of this issue proved that the waqf properties had a political and social influence on state governance: “The memorandum given to Eshan Mawlavi Mehmonkhan stated that the entire mahalla, along with the waqf properties attached to his madrasa, was exempt from taxes” (Xatamova, 2023).The fact that the charter mentions the exemption of an entire mahalla from taxes indicates that this was not only a financial decision, but also a high socio-political gift. By granting such legal and economic privileges to highly trusted

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

individuals (for example, the Namangan-based maulvi M.), the Khan's power rested on the religious elites, who in turn exerted influence over the population.

1.Endowments and privileged entities in the financial system of the Kokand Khanate:

2.Such documents — “khanate charters and decrees” — demonstrate an asymmetrical approach to the tax system. Taxes were not applied equally to everyone, but there were subjects who were exempted from taxes depending on their social status, position, or religious affiliation. This indicates the existence of a vertical structure of state finances, a hierarchy, and a system of preferences.

Although the dominance in income generation through waqf properties in the Kokand Khanate had a direct and indirect negative impact on the overall state revenue, sources show that the rulers of the country supported the expansion and development of waqf properties as much as possible. Waqfs served as a significant financial resource, especially for high-ranking ulema and clergy, who held positions such as mudarris, mutawalli, imam, and qari, personally receiving a certain percentage of waqf revenues. This financial flow helps clarify the distribution of funds and expenditure directions.

Waqf properties in the Kokand financial system had two levels: some were fully or partially exempt from state taxes. These tax privileges supported financially powerful groups such as iqtadars, suyurgol owners, tarhons, and single proprietors, indicating the existence of a tax exemption policy in the Kokand tax system. This resulted in a decrease in tax revenues entering the state treasury. Moreover, officials related to the Kokand financial system — governors, mutawallis, and elders — exploited their positions in the waqf and tax systems for personal financial gain. This reflects a system with financial

decentralization and opportunities for personal enrichment through office. Overall, waqf properties played an important role in the social and economic structure of the Kokand state, but the inequalities and tax privileges in this financial system negatively affected state revenues.

## References

1. Xatamova, Z. (2023). Iz istorii denezhnoy politiki v finansovoy systeme Kokanskogo Khanstva. *Aktualnye problemy istorii Uzbekistana*, 1(1), 327–336. izvlecheno nounhttps://inlibrary.uz/index.php/history-of-uzbekistan/article/view/16511
2. Ivanov, P.P. (1937). Udelnye zemli. *Zapiski Instituta vostokovedeniya AN SSSR*, T.5. s.56-89.
3. Khatamova, Z. (2021). *Expenditure of income from taxes and levies in the Kokand khanate*: https://doi. org/10.47100/conferences. v1i1. 1230. In research support center conferences (No. 18.05).
4. Khan, M.H. (n.d.). *Excellent at-Tawarikh*. OWN FASHION. Manuscript. 470 b, sheet 452.
5. Nalivkin, V. (1886). *A brief history of the Kokand Khanate*.
6. Troitskaya, A.L. (1969). *Materialy po istorii Kokandkogo khanstva XIX c. Science*.

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 17-21**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 july 2025 / 17-21**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Sədaqət İsgəndərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0000-0002-6582-589X
elmiraygun2014@gmail.com

# Şagirdlərdə şüurlu intizam tərbiyəsinin formalaşdırılması

***Açar sözlər:*** *müəllim, valideyn, şagird, məktəb, nizam-intizam qaydaları*
***Keywords:*** *teacher, parent, student, school, discipline rules*

Məktəbdə təlim-tərbiyə işinin təşkili fəaliyyətin başlanğıc və davamının uğurlu olmasının təminatıdır. Tam təhsil mühiti yaratmaq və əsas məqsədə çatmaq nizam və intizamdan, qaydaların tətbiqindən asılıdır. Müasir təlim metodları məktəbdə şagirdi dövrün tələblərinə uyğunlaşa biləcək bir şəxsiyyət kimi formalaşdırmaqdan əlavə, eyni zamanda qarşısına bir çox vəzifələr qoyur. Şagirddə yaş və fiziologiya ilə bağlı olaraq yaranan xarakter və davranış pozulmalarının qarşısını almaq və vaxtında istiqamətləndirərək korreksiya etmək bu vəzifələrin ən birincisidir. Çünki sağlam düşüncə tərzi formalaşdırmadan, sağlam cəmiyyət yaratmadan sağlam və əsaslı təhsildən söhbət gedə bilməz. Bu baxımdan azyaşlı uşaqlara nağıl terapiya üsulundan, yuxarı siniflərdə isə bədii animasiya filmlərinin təqdimatından istifadə edərək şüuraltı tərbiyə edərək istiqamətləndirən metoddan istifadə olduqca effektiv bir üsul olardı. Müasir psixologiyada bu üsuldan istifadə olunur və bu metod şagirddə yaradıcı bacarıqların inkişafına, şüurun genişləndirilməsinə, daxili qorxu və komplekslərinin aradan

https://doi.org/10.36719/2789-6919/2025/XIV

qaldırılmasına şərait yaradır. Bu üsulla uşaqlarda dərin psixoloji sarsıntıları belə korreksiya etmək mümkün olur.

Nağıl terapiyası. Bəs nağıl terapiya nədir? Uşaqlıqdan dinlədiyimiz nağıllar həmişə bizə yol göstərmişdir. Amma çağdaş dövrümüzün problemləri, şagirdlərdə dövrlə əlaqəli psixoloji pozuntular və ya şagirdin yaş və fiziologiyası ilə bağlı hərəkətlər, davranışda olan dəyişikliklər bizdən bu məsələdə daha məsuliyyətli və daha diqqətli olmağı tələb edir. Məlum məsələdir ki, təlim - tərbiyədə birbaşa hədəf olunanın söylənilməsi, izah olunması son dövrlərdə effektiv nəticə vermir. Bu, tədris prosesində də belədir. Təlim-tərbiyə prosesində də. Çünki, fəal dərsdə müəllim yeni dərsi izah etmək əvəzinə, şagirdin əsasən nəticəyə özünün çatmasına nail olmalıdır. Yəni müəllim vasitəçi olmalı, yol göstərən olmalıdır, şagirdinin pillə-pillə təlim nəticəsinə çatmasına şərait yaratmalıdır.

Nağıl terapiya məhz buna görə müasir psixologiyada geniş tətbiq olunur. Müasir tədrisdə, tədris prosesi zamanı motivasiya mərhələsində nağıllardan geniş istifadə olunması şagirdin dolayı yolla şüuraltı təlim-tərbiyə istiqaməti götürəcəyi bir metoddur. Tədrisdə bu metoddan o qədər də geniş istifadə olunmur. Amma bu, olduqca effektiv bir metoddur. Məsələn, şagirdə düzlük, əməyi sevmək, sədaqət, vətənə məhəbbət kimi əxlaqi dəyərlər artıq "əməyi sevməliyik, sadiq olmalıyıq" şəklində birbaşa deyil, dolayı yolla şüuraltına yönəldilməlidir. Belə bir nümunəyə baxaq: "Günlərin bir günü düzənlikdə qoca bir şir yatmışdı. Bir siçan onun üstünə çıxıb o yan bu yana qaçmağa başladı. Şir oyanıb siçanı tutdu. Siçan yalvarmağa başladı. O, şirə dedi: "Əgər məni buraxsan, sənə yaxşılığım dəyər". Şir siçanın bu sözlərinə güldü, ancaq ona dəymədi. Bir gün şir tələyə düşdü. O nə qədər çalışsa da, torun möhkəm iplərini qıra bilmədi. Açıqlanmış şir var gücü ilə nərildəyirdi. Şirin nəriltisini

https://doi.org/10.36719/2789-6919/2025/XIV

eşıdən siçan özünü ona yetirdi. Torun kəndirlərini gəmirməyə başladı. Nəhayət, şir canını tordan qutardı. O, siçana dedi: "O vaxt mən sənin sözlərinə güldüm. Ancaq, sən demə, siçanın da şirə yaxşılığı dəyərmiş."

Belə bir nağılı danışmaqla artıq şagirdə şüuraltında lazımi məsələni yeritmiş oluruq. Yəni şagird şir və siçanın timsalında, bütün varlıqların, insanların fiziki gücündən, imkanından asılı olmadan birinin digərindən üstün olmadığı fikrini dərk etmiş olur. Əslində bu metodla şagirdləri sadəcə "dərs " adına, qiymət almaq üçün öyrəndikləri bədii ədəbiyyata marağı da artırmış olarıq. Azyaşlı uşaqlarla isə bu metodu daha əyləncəli hala gətirə, nağılları kuklaların vasitəsilə canlandıra bilərik. Şagirdə ilk öncə lazımi personajı sevdirməli, mənfi xüsusiyyətli personaja qarşı nifrət yaratmalıyıq. Bu yolla biz məqsədimizə doğru daha bir addım atmış olarıq. Daha sonra onun vasitəsilə lazımi məlumatı uşağın şüuraltına yeridə bilərik. Yəni şagird artıq özü belə bilmədən sevdiyi, nifrət etdiyi personajlarda sevəcəyi, nifrət edəcəyi insani, əxlaqi dəyərləri mənimsəmiş olur. Uşaq tərbiyəsində məsuliyyət daşıyan hər bir insan başa düşməlidir ki, pis uşaq yoxdur, pis tərbiyəçi və yanlış seçilən tərbiyə metodları vardır.

Amerikalı psixoloq Fred Jones "Tərbiyə üçün xüsusi zaman ayrılmalıdır" fikrinin əksinə olaraq, təlim zamanı tədris olunan mövzu və fəaliyyətlər vasitəsilə tərbiyənin təbliğ olunması fikrini müdafiə edir. Bu fikrə istinad edərək, təlim zamanı şagirdləri qruplara bölərək müəyyən mövzularda, müxtəlif təlimlər etməklə onların bir-birilə daha asan və interaktiv ünsiyyət qurmalarına yardım etmiş olarıq. Mövzular dərs planına, uşaqların yaş və xarakterlərinə uyğun olaraq seçilməlidir. Bu zaman şagirdləri qruplara ayıraraq, bir qrupa bu mövzunun müsbət cəhətlərini - üstünlüklərini, digər qrupa isə mənfi cəhət və çatışmazlıqlarını müzakirə etmə tapşırığı verilir.

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

Həmin mövzu ətrafında müzakirələrin aparılması ilə onlar yaxşı və pisi, doğru və yanlışı öyrənmiş olacaqlar. Eyni zamanda müəllimin bu mövzunun tərbiyəvi xüsusiyyətlərini vurğulaması da qarşıya qoyulmuş məqsədin tam və dolğun şəkildə yerinə yetirilməsinə şərait yaradacaqdır. Bu metodun digər üstün cəhəti şagirdlərin bir-biri ilə işləmə və bir-birini dinləmə bacarığı formalaşacaqdır. Müəllimin nizam-intizam mövzusunda rolu əvəzsizdir. Metodun doğru seçilməsi uğurlu nəticə almaq üçün vacib olduğundan onun da bir sıra vəzifələri vardır: şagirdləri yaxından tanımalı, sinifdə fəaliyyətlər təşkil etməli, nizam – intizam mövzularına dair tapşırıqlar təşkil etməli, problemli davranışlar edən şagirdlərə kəskin töhmət verməkdən yayınmalı, lakin bu davranışın səbəbini araşdırmalı və yanlış davranışa görə müəyyən cəza verməli, şagirdlər köməyə ehtiyac duyduqda (məs: şagirdlər arasında mübahisə və ya münaqişənin sonlandırılması) onlara fərdi yanaşmalıdır. Bu davranışlar vasitəsilə müəllim həm məhdudiyyətləri aradan qaldırır, həm də tərbiyəvi təlimi təşkil etmiş olur.

Məktəb psixoloqu. Məktəblərdə psixoloqların olması da vacib mövzulardandır. Dövrümüzdə psixoloji xidmətin tam təşəkkül tapmasına baxmayaraq, bir çox təhsil ocaqlarında psixoloqların fəaliyyətinə baş vurulur. Psixoloji xidmətin əsas ən başlıca səbəbi pedaqoji işçilərin, rəhbərlik və valideynlərin əməkdaşlığı nəticəsində şagirdlərin psixoloji vəziyyətinin, meyillərinin, ailə vəziyyətinin, təhsil fəaliyyətinin öyrənilməsi ilə onları doğru yönləndirmək, onlara düzgün psixoloji dəstək göstərməkdir. Bunda əsas məqsəd şagirdlərin təhsil nailiyyətlərinin artırılması, mənfi davranışları aradan qaldırmaqla müsbət davranış modelinin formalaşdırılması və onların psixoloji sağlamlığını dəstəkləməklə mənəvi aləmlərinin zənginləşdirilməsindən ibarətdir.

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

Bu, eyni zamanda həm təhsil müəssələrində sağlam və təhlükəsiz mühitin yaranmasına, həm də ailə-məktəb münasibətlərinin tənzimlənməsinə yardımcı olur. Məktəblərdə psixoloji təlimlərin keçirilməsi həm pedoqoji işçilərin, həm rəhbərliyin, həm də valideynlərin maarifləndirilməsi və məlumatlandırılması onların şagirdlərə qarşı daha həssas yanaşmasına səbəb olacaqdır.

Beləliklə, nizam-intizam qaydalarının təmin edilməsi şagirdlərin düzgün əxlaqi keyfiyyətlərinin formalaşması ilə nəticələnir. Bu günün şagirdlərinin gələcək karyeralarında, iş mühitində, insanlarla ünsiyyətində, şəxsi həyatlarında və cəmiyyətdə daim məktəb nizam-intizam qaydalarının izləri özünü biruzə verəcəkdir və bu da, təhsilin şəxsiyyətin formalaşmasında əsaslı və vacib bir baza olduğunu sübut edir.

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Könül Əzizova**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
https://orcid.org/0009-0006-2294-301X
konul.azizova@adnsu.edu.az

# İngilisdilli reklamlarda təsir vasitələri: verbal və qeyri-verbal ünsiyyətin gender əsaslı analizi

***Açar sözlər:*** *gender nümayişi, reklam diskursu, verbal ünsiyyət, qeyri-verbal ünsiyyət, stereotiplər, vizual semiotika, media dili*

***Keywords:*** *gender representation, advertising discourse, verbal interaction, non-verbal cues, stereotypes, visual semiotics, media language*

Reklam, təkcə məhsul və xidmətlərin tanıdılması vasitəsi deyil, eyni zamanda, cəmiyyətin mədəni və sosial strukturunun əks olunması və yönləndirilməsi alətidir. Xüsusilə genderə əsaslanan reklam mətnləri, cəmiyyətin qadın və kişiyə dair qəbul edilmiş rollarını təbliğ edə və ya tənqid edə bilər (Kotler, Keller, 2016, s.510). Reklamların dili və vizual ünsiyyət kodları bu baxımdan təkcə kommersiya məqsədi daşımır, həm də ideoloji tərkibli mesajlar ötürür (Butler, 1990). Bu səbəblə, verbal və qeyri-verbal ünsiyyət vasitələrinin genderə əsaslanan şəkildə necə qurulduğunu təhlil etmək, həm dil elmləri, həm də kommunikasiya araşdırmaları üçün əhəmiyyətlidir.

Verbal ünsiyyət reklamın əsas informasiya daşıyıcısıdır. İngilisdilli reklamlarda dilin strukturu və seçimi gender stereotiplərinin möhkəmləndirilməsində və ya pozulmasında mühüm rol oynayır. Məsələn, qadın auditoriyaya yönəlmiş kosmetik reklamlarında “reveal your beauty”, “feel elegant”, “shine like a star” kimi ifadələr emosional və estetik yüklü, yumşaq və təsirli şəkildə təqdim olunur. Kişi auditoriyasına

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

xitab edən avtomobil və texnologiya reklamlarında isə "powerful performance", "built to last", "unleash your potential" kimi ifadələr güc, dözümlülük və rasional keyfiyyətləri vurğulayır (Talbot, 2007, s. 86).

Bu ifadələr genderlə əlaqəli sosial gözləntiləri dil vasitəsilə kodlayır. Thornborrow (2004) qeyd edir ki, reklamda istifadə edilən dil təkcə məhsulun yox, həm də "ideal qadın" və "ideal kişi" obrazlarının yaradılmasına xidmət edir. Bu baxımdan, verbal ünsiyyət cinsiyyətə görə kodlaşdırılmış anlam daşıyır və cinsə dair ictimai stereotipləri təkrar istehsal edir. Reklamın vizual elementi – şəkillər, rənglər, jest və mimika, bədən dili və yerləşdirmə – qeyri-verbal ünsiyyətin əsas daşıyıcılarıdır. Vizual ünsiyyət verbal ifadəni tamamlayır və bəzən onu üstələyərək əsas mesaj daşıyıcısına çevrilir. Qadınlar reklam şəkillərində tez-tez passiv mövqedə, baxış obyektinə çevrilmiş, incə və emosional şəkildə təqdim olunur (Goffman, 1979). Kişilər isə çox vaxt fəal, məkanın sahibi, güc və idarəetmə simvolu kimi göstərilir. Məsələn, bir idman geyim reklamında kişi modelin irəliyə doğru hərəkət etdiyi, baxışının kameraya deyil, uzaqlara yönəldiyi və ciddi ifadəylə təqdim edildiyi müşahidə olunur. Bu, irəliləyiş və güc kimi anlayışların qeyri-verbal şəkildə təqdimidir. Qadın model isə çox vaxt gülümsəyən, kameraya baxan və estetik kompozisiyanın mərkəzində yer alan sima olur (Bordo, 1993, s.25).

Reklamların təsir gücü yalnız verbal və ya yalnız qeyri-verbal vasitələrdən asılı deyil, əksinə, bu iki ünsiyyət növünün inteqrasiyasından doğur. Yuxarıda qeyd olunan kosmetik reklamda "reveal your beauty" sloqanı ilə yanaşı, qadın modelin yüngül təbəssümlə, saçlarını geriyə ataraq kamera obyektivinə baxması estetik və emosional cazibəni gücləndirir. Burada mətnlə bədən dili arasında uyğunluq yaradılaraq təsir gücü ikiqat artırılır.

https://doi.org/10.36719/2789-6919/2025/XIV

Eyni zamanda, bəzi müasir reklam nümunələrində gender rollarına kritik yanaşmalar müşahidə olunur. Məsələn, kişilər emosional vəziyyətdə, qadınlar isə lider mövqedə təsvir olunaraq stereotiplər pozulur (Gill, 2008, s.43). Bu tip reklamlarda verbal mesajların gender kodları ilə qeyri-verbal mesajlar arasında ziddiyyət yaradıla bilər ki, bu da auditoriyanın diqqətini çəkmək və sosial mesaj ötürmək üçün istifadə olunan bir taktika sayılır.

İngilisdilli reklamlarda istifadə olunan verbal və qeyri-verbal ünsiyyət vasitələri genderə əsaslanan stereotiplərin həm möhkəmləndirilməsi, həm də tənqidinə xidmət edə bilər. Reklam dili cəmiyyətdə qadın və kişinin necə qəbul edildiyini əks etdirir və bu obrazların yaradılmasında linqvistik seçimlər və vizual kodlar mühüm rol oynayır. Reklamın bu çoxqatlı təsir strukturu, dilin və görüntünün ideoloji gücünü bir daha təsdiqləyir.

## Ədəbiyyat

1. Bordo, S. (1993). *Unbearable Weight: Feminism, Western Culture, and the Body*. University of California Press.
2. Butler, J. (1990). *Gender Trouble: Feminism and the Subversion of Identity*. Routledge.
3. Gill, R. (2008). *Gender and the Media*. Polity Press.
4. Goffman, E. (1979). *Gender Advertisements*. Harper & Row.
5. Kotler, P., Keller, K.L. (2016). *Marketing Management* (15th ed.). Pearson Education Limited.
6. Talbot, M. (2007). *Media Discourse: Representation and Interaction*. Edinburgh University Press.
7. Thornborrow, J. (2004). *Language and Gender: An Introduction*. Oxford University Press.

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Rahibə Əbdülhəsənova**
Naxçıvan Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0003-8702-7766
abdulhasanovarahiba@gmail.com

# Ekoloji davamlılıq və investisiya maneələri: Azərbaycanda yaşıl iqtisadiyyatın tətbiqində təhlil

***Açar sözlər:*** *ekologiya, investisiya, iqtisadiyyat, iqlim*
***Keywords:*** *ecology, investment, economy, climate*

Bu tezisdə Azərbaycanda yaşıl iqtisadiyyata keçidin həyata keçirilməsi zamanı qarşıya çıxan əsas investisiya maneələri və onların ekoloji davamlılığa təsiri araşdırılır. Müasir dövrdə ekoloji problemlərin və iqlim dəyişikliyinin yaratdığı təhdidlər fonunda yaşıl iqtisadiyyat alternativ inkişaf modeli kimi ön plana çıxır. Azərbaycanın bu istiqamətdə qəbul etdiyi dövlət proqramları və strateji sənədlər bu keçidi dəstəkləsə də, investisiya çatışmazlığı, institusional zəifliklər, texnologiya asılılığı və maliyyə riskləri bu prosesin qarşısında əsas maneələr kimi qalır. Tezisdə beynəlxalq təcrübə ilə müqayisəli təhlil aparılaraq, yaşıl layihələrin maliyyələşdirilməsi üçün tələb olunan şərait və siyasət alətləri müəyyənləşdirilmişdir. Nəticələrə əsasən, yaşıl maliyyə bazarlarının yaradılması, xarici sərmayələrin cəlbi, normativ-hüquqi mexanizmlərin təkmilləşdirilməsi və texnoloji tərəfdaşlıqların inkişafı Azərbaycanın ekoloji baxımdan davamlı iqtisadi sistem qurmasına töhfə verə bilər. Bu tövsiyələr həm də post-neft dövrü üçün strateji əhəmiyyət kəsb edir.

Son illər dünya ölkələrinin qarşısında dayanan əsas çağırışlardan biri iqlim dəyişikliyi və ətraf mühitin deqradasiyası ilə mübarizə aparmaqdır. Bu reallıq davamlı inkişafın təmin olunması və ekoloji tarazlığın qorunması istiqamətində yeni iqtisadi model olan *yaşıl iqtisadiyyata keçidi* aktuallaşdırmışdır. Yaşıl iqtisadiyyat həm ətraf mühitin mühafizəsi, həm də iqtisadi artım və sosial rifahın təmin edilməsi üçün vacib mexanizm kimi çıxış edir.

Azərbaycan Respublikası da bu qlobal meyllərə uyğun olaraq "yaşıl artım" siyasətini milli prioritetlərindən biri kimi müəyyən etmişdir. 2030-cu ilə qədər olan inkişaf strategiyasında təmiz enerji mənbələrinin istifadəsi, ekoloji standartların tətbiqi və yaşıl texnologiyaların təşviqi əsas istiqamətlər kimi göstərilmişdir. Lakin yaşıl iqtisadiyyatın tətbiqi sadəcə strateji sənədlərlə məhdudlaşmır – bu prosesin uğurlu icrası üçün kifayət qədər investisiya resurslarının, institusional infrastrukturun və maliyyə mexanizmlərinin mövcudluğu zəruridir. Hazırkı reallıq göstərir ki, Azərbaycanda bu sahədə müəyyən nailiyyətlər olsa da, investisiya axınlarının məhdudluğu, hüquqi və institusional boşluqlar, texnologiya transferində çətinliklər yaşıl keçidin qarşısında duran əsas maneələrdir.

Bu tezisin məqsədi Azərbaycanda yaşıl iqtisadiyyata keçidin reallaşdırılması zamanı qarşıya çıxan investisiya problemlərini sistemli şəkildə təhlil etmək, beynəlxalq təcrübə ilə müqayisəli yanaşma aparmaq və mövcud çətinliklərə uyğun praktiki tövsiyələr irəli sürməkdir. Tezis həmçinin post-neft dövründə Azərbaycanın davamlı iqtisadi inkişafında yaşıl yanaşmanın strateji əhəmiyyətini də vurğulayır.

Yaşıl iqtisadiyyat anlayışı ilk dəfə BMT-nin Ətraf Mühit Proqramı (UNEP) tərəfindən iqtisadi artımın, sosial bərabərliyin və ətraf mühitin qorunmasının qarşılıqlı inteqrasiyası şəklində təqdim olunmuşdur (UNEP, 2011). Bu yanaşma ekoloji resurs-

https://doi.org/10.36719/2789-6919/2025/XIV

lardan səmərəli istifadəni, zərərli tullantıların azaldılmasını və enerji səmərəliliyinin artırılmasını hədəfləyir.

OECD (OECD, 2011) yaşıl iqtisadiyyatı “yaşıl böyümə” strategiyası kontekstində qiymətləndirərək qeyd edir ki, yaşıl inkişaf yalnız makroiqtisadi siyasətlə deyil, həm də investisiya və innovasiya strategiyaları ilə dəstəklənməlidir. Bu baxımdan maliyyə sistemlərinin, xüsusilə də yaşıl maliyyə alətlərinin (green bonds, ESG investisiyaları və s.) rolu ön plana çıxır.

Ziegler et al. (Ziegler et al., 2012) yaşıl texnologiyalara investisiyaların səviyyəsini artırmaq üçün institusional sabitliyin və riskin idarə olunmasının əhəmiyyətini vurğulamışdır. Eyni zamanda, Hall et al. (Hall et al., 2017) bildirirlər ki, inkişaf etməkdə olan ölkələrdə bu sahədəki əsas məhdudiyyətlər yerli maliyyə bazarlarının zəif inkişafı, texnoloji biliklərin məhdudluğu və qeyri-sabit tənzimləmə mühitidir.

Azərbaycan kontekstində isə Əliyev və Məmmədov (Əliyev, Məmmədov, 2020) qeyd edirlər ki, yaşıl iqtisadiyyatla bağlı milli proqramlar olsa da, bunların effektiv icrası üçün xüsusi investisiya mexanizmləri və normativ-hüquqi bazanın təkmilləşdirilməsinə ehtiyac var. Onların araşdırmalarında vurğulanır ki, hazırda yaşıl iqtisadiyyat layihələrinin əsasən dövlət vəsaiti ilə maliyyələşdirilməsi, özəl sektor iştirakının isə olduqca zəif olması bu sahədə institusional disbalans yaradır.

Digər tərəfdən, World Bank (World Bank, 2022) hesabatında bildirilir ki, Azərbaycanın bərpa olunan enerji potensialı (xüsusilə günəş və külək) yüksəkdir, lakin bu resursların iqtisadi səmərəliliyini təmin etmək üçün xarici sərmayələr və texnologiya transferi zəruridir. Azərbaycan üçün yaşıl iqtisadiyyat sahəsində müəyyən güclü tərəflər də mövcuddur:

Bərpa olunan enerji potensialı – Günəş və külək enerjisi baxımından ölkənin, xüsusilə Qarabağ və Naxçıvan bölgələrinin

https://doi.org/10.36719/2789-6919/2025/XIV

yüksək potensiala malik olması yaşıl keçid üçün təbii üstünlükdür (World Bank, 2022).

Regional və beynəlxalq əməkdaşlıq imkanları – Azərbaycanın COP29 kimi qlobal ekoloji platformalara ev sahibliyi etməsi beynəlxalq maliyyə və texnologiyaların cəlb edilməsinə yol açır (UNEP, 2024).

Gənc startap ekosistemləri – Ekologiya yönümlü texnoloji startapların (məsələn, tullantıların təkrar emalı sahəsində) inkişafı bu sahənin innovativ imkanlarını genişləndirir.

## Ədəbiyyat

1. Əliyev, R., Məmmədov, E. (2020). Azərbaycanda yaşıl iqtisadiyyatın inkişafında investisiya strategiyasının rolu. *Azərbaycan İqtisadiyyatı Jurnalı*, (2), 41–53.
2. Hall, J., Foxon, T.J., Bolton, R. (2017). Investing in low-carbon transitions: energy finance as an adaptive market. *Climate Policy*, 17(3), 280-298. https://doi.org/10.1080/14693062.2015.1094731
3. OECD. (2011). *Towards green growth*. OECD Publishing. https://doi.org/10.1787/9789264111318-en
4. UNEP. (2011). *Towards a green economy: Pathways to sustainable development and poverty eradication*. United Nations Environment Programme.
5. World Bank. (2022). *Azerbaijan Country Climate and Development Report*. Washington, D.C.
6. Ziegler, A., Schröder, M., Rennings, K. (2012). The effect of environmental and social performance on the stock performance of European corporations. *Environmental and Resource Economics*, 52(4), 569–592.

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 29-32**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 july 2025 / 29-32**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Mahmood Athar Azhar**
Azərbaycan Dillər Universiteti
doktorant
https://orcid.org/0009-0003-7206-6340
pakpatri@gmail.com

# Üçtərəfli əməkdaşlıq modeli: Azərbaycan – Türkiyə – Pakistan münasibətlərinin yeni mərhələsi

***Açar sözlər:*** *Azərbaycan, Türkiyə, Pakistan, əməkdaşlıq, münasibətlər, strateji tərəfdaşlıq*

***Keywords:*** *Azerbaijan, Turkey, Pakistan, cooperation, relations, strategic partnership*

İkinci Qarabağ Müharibəsindən sonra Qafqazda və bütövlükdə Türk – İslam dünyasında yeni yaradılan güc mərkəzi Azərbaycan – Türkiyə və Pakistan üçtərəfli əməkdaşlıq platformasıdır. Müharibə dövründə Türkiyə və Pakistanın Azərbaycana siyasi dəstəyi bu platformanın yaradılmasını şərtləndirmişdi. Azərbaycanın Pakistan və Türkiyə ilə üçtərəfli əməkdaşlığı artıq enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, logistika və diplomatik koordinasiya sahələrini əhatə edir və qlobal güc mərkəzlərinin dəyişdiyi bir şəraitdə yeni bir inteqrasiya modelinin ortaya çıxmasını şərtləndirir.

Çindən Avropaya qədər uzanan nəqliyyat marşrutunun – Orta Dəhlizin əhəmiyyəti artdıqca, Pakistanın bu dəhlizə inteqrasiyası, xüsusilə Qvadar ilə Bakı limanı arasında əlaqələrin qurulması Cənubi Asiya ilə Qafqaz və Avropa arasında yeni ticarət magistralının formalaşmasını şərtləndirir.

https://doi.org/10.36719/2789-6919/2025/XIV

Eyni zamanda, Cənub-Cənub əməkdaşlığı çərçivəsində Bakı və İslamabad arasında ticarət və logistika sahəsində qarşılıqlı maraqlar mövcuddur. Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı təşəbbüsləri və Pakistanın Çin – Pakistan İqtisadi Dəhlizi layihəsi bu iki dövlətin nəqliyyat və enerji sahəsində tamamlayıcı rolları oynaya bilməsi ilə bağlı nikbin nəticəyə gəlməyə əsas verir. Çin – Pakistan İqtisadi Dəhlizi Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün bir hissəsidir və layihənin əsas məqsədi Çinə qısa və təhlükəsiz ticarət marşrutu təqdim etməklə yanaşı, Pakistanın enerji və infrastruktur potensialını artırmaqdır (Zeynalova, 2025).

2024-cü il iyulun 3-də Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şehbaz Şərifin Şanxay Əməkdaşlıq Təşkilatının Dövlət Başçıları Şurasının 24-cü iclası çərçivəsində Astanada görüşü üçtərəfli əməkdaşlıq platformasının inkişafına təkan verdi. Üçtərəfli zirvə görüşündə Azərbaycan, Türkiyə və Pakistan arasında münasibətlər, həmçinin Qəzza, Kipr, Kəşmir problemləri və İslamofobiya kimi regional və qlobal məsələlər müzakirə olundu. Burada üç ölkə arasında əməkdaşlıq imkanlarını inkişaf etdirmək üçün ortaq niyyət ifadə olundu.

Tərəflər suverenlik və ərazi bütövlüyü prinsiplərini əsas tutaraq münaqişələrin həllində iştirakçı ölkələr arasında dialoqun aparılmasını dəstəklədiklərini bildirərək, transmilli təhdidlərə, xüsusilə terrorizmə qarşı mübarizədə üç ölkə arasında əməkdaşlığın və bu məsələnin birgə həllinin vacibliyini bir daha təsdiqlədilər (Azərbaycan, Türkiyə və Pakistan üçtərəfli görüşünə dair Birgə Bəyanat, 2024).

2024-cü il iyulun 11-12-də Azərbaycan Prezidenti İlham Əliyev İslamabadla ikitərəfli əlaqələrin möhkəmləndirilməsi məqsədilə Pakistana dövlət səfəri etdi. İlham Əliyevin İslamabada səfəri, Azərbaycan, Pakistan və Türkiyənin üçtərəfli

https://doi.org/10.36719/2789-6919/2025/XIV

sammiti üçtərəfli ticarət və tranzit əməkdaşlığının genişləndirilməsinə, onların hərbi potensialının və müdafiə istehsalının daha yaxşı inteqrasiyasına sadiqliyini, regional ticarət və tranzitə daha çox təsir göstərmək üçün üç ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafını nəzərdə tuturdu. Azərbaycan – Pakistan – Türkiyə üçtərəfli əməkdaşlığı bu dövlətlərin Cənubi Qafqazdakı mövqeyini möhkəmləndirmək və digər regional oyunçulara və xarici qüvvələrin təsirinə əks güc kimi xidmət etmək məqsədi daşıyırdı. Dövlət səfəri və bundan əvvəlki üçtərəfli sammit zamanı müzakirələrin əsas mövzusu Pakistanın Azərbaycan ərazisindən keçən tranzit dəhlizlərinin inkişafı və istifadəsində iştirakı ilə bağlı oldu (Huseynov, 2024).

Müdafiə sektoru Azərbaycan, Pakistan və Türkiyənin üçtərəfli əməkdaşlığının digər əsas sahəsidir. Üçtərəfli sammit zamanı üç ölkə müdafiə qabiliyyətini gücləndirmək üçün müntəzəm birgə hərbi təlimlərin vacibliyini müzakirə edərək, 2021-ci ildə keçirilən "Üç Qardaş" hərbi təlimlərinin uğuru gələcək əməkdaşlıq üçün nümunə kimi göstərildi. Bu təlimlər nəinki hərbi hazırlığı gücləndirdi, həm də üç ölkənin silahlı qüvvələri arasında daha çox anlaşma və qarşılıqlı fəaliyyətə şərait yaratdı (Hüseynov, 2024).

Qeyd edək ki, Azərbaycanın Türkiyə ilə əlaqələri demək olar ki, bütün sahələri əhatə edir. Bu əlaqələr iki ölkəni müdafiə, təhlükəsizlik, ticarət, investisiya və enerji sahələrində yaxın tərəfdaşlara çevirib.

Azərbaycanla Pakistan arasında münasibətlər isə hələki yalnız siyasi əməkdaşlıqla məhdudlaşıb. Azərbaycan və Pakistan arasında ticarət dövriyyəsi 2020-ci ildə 13,28 milyon dollar, 2022-ci ildə 28,1 milyon dollar, 2023-cü ildə 100 milyon dolları ötsə də, hər iki tərəf bu rəqəmin hələ də onların ikitərəfli əlaqələri üçün real potensialdan aşağı olmasını etiraf edir.

https://doi.org/10.36719/2789-6919/2025/XIV

Baş nazir Məhəmməd Şahbaz Şərifin 2023-cü ilin iyununda Azərbaycana səfəri zamanı razılıq əldə olundu ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) mayeləşdirilmiş təbii qazı (LNG) Pakistan LNG (PLL) enerji şirkətinə bir il müddətinə güzəştli tariflərlə, LNG üçüncü tərəf təchizatçılarından çatdırsın (Huseynov, 2024).

Beləliklə, üçtərəfli əməkdaşlıq platforması əsas etibarı ilə nəqliyyat, logistika, enerji və müdafiə sahələrini əhatə etməklə geniş perspektivlər vəd edir.

## Ədəbiyyat

1. *Azərbaycan, Türkiyə və Pakistan üçtərəfli görüşünə dair Birgə Bəyanat*, 3 iyul 2024: [Elektron resurs] / URL: https://mfa.gov.az/az/news/no28224
2. Huseynov, V. (2024). *Azerbaijan Strengthens Trilateral Cooperation With Pakistan and Türkiye*: [Electronic resource] / URL: https://jamestown.org/program/azerbaijan-strengthens-trilateral-cooperation-with-pakistan-and-turkiye/
3. Zeynalova, Ş. (2025). *Strateji tərəfdaşlığa ucalan müttəfiqlik:* [Elektron resurs] / URL: https://xalqqazeti.az/az/siyaset/223206-strateji-terefdasliga-ucalan-muttefiqlik

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 33-36**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 july 2025 / 33-36**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Zərifə Musayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
doktorant
https://orcid.org/0009-0008-6172-6741
zerifemusayev80@gmail.com

# Müasir təlim metodları və onun tətbiqi təcrübəsindən

***Açar sözlər:*** *pedaqoji proses, təlim prosesi, təhsil, metod, dərs, şadird*
***Keywords:*** *pedagogical process, raining process, education, method, lesson, student*

Ölkəmizdə tədris prosesinin təşkilinin yeni, daha səmərəli formalarının tətbiq edilməsi yüksək intellektual hazırlığa malik olan, qazandığı biliklərdən istifadə etməyi bacaran hərtərəfli dünyagörüşə malik, milli-mənəvi və ümumbəşəri keyfiyyətlərə yiyələnmiş şəxsiyyətin, əsl vətəndaşın yetişdirilməsinə xidmət edir. Təhsilin keyfiyyətini yüksəltmək və onun dinamik inkişafını təmin etmək üçün yeni pedaqoji texnologiyalardan, yeni təlim metodlarından istifadəyə üstünlük verilir. Təlimdə tətbiq edilən metodlar şagirdlərə proqram dairəsində biliklərin verilməsi ilə bərabər, həm də onların hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmasına istiqamətləndirilir. Deməli, müasir təlim prosesinin əsas məqsədi tədrisin səmərəliliyini artırmaq, öz düşüncəsi, ağlı, potensial enerjisi, güclü məntiqi ilə fənləri dərindən mənimsəyən və onu tətbiq etməyi bacaran, hər cür situasiyalarda işin məğzini tutub çıxış yolunu tapmağı bacaran yüksək intellektli gənclər yetişdirməkdir.

Hazırda tədris-təlim prosesində yeni texnologiyaların tətbiqi, pedaqoji prosesin idarəedilməsində yeni yanaşmalardan istifadə, keyfiyyətli sinif-dərs sisteminin qurulmasına geniş imkanlar açır. Sinif-dərs sisteminin keyfiyyət təminatında ənənəvi dərslərdən fərqli olaraq, müasir dərsin təşkili həlledici rol oynayır. Bu halda sinif mühitində son dərəcə əhəmiyyətli dəyişikliklər baş verir, öyrədənlə öyrənən arasında, şagirdlərin öz aralarında və məktəblə valideynlər arasında müasir tələblərə cavab verən qarşılıqlı əlaqələr qurulur. Müasir təlim metodlarından biri olan interaktiv təlim üsullarından və İKT-dən geniş istifadəyə yeni imkanlar yaranır. Təlim prosesində İKT vasitələrinin (Kahoot, Padlet, Quizizz, interaktiv lövhələr) istifadəsi motivasiyanı artırır və dərsi daha cazibədar edir. Bu isə müasir təlim prosesinin qarşıya qoyduğu məqsədlərə çatmağı daha da sürətləndirir. Müasir təlim metodları – şagirdlərin düşüncə və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən, bilik və bacarıqları fəal şəkildə mənimsəmələrini təmin edən metodlar toplusudur. Bu metodlar müəllim mərkəzli deyil, şagird mərkəzli yanaşmanı əsas götürür və təhsildə aktiv iştirak, əməkdaşlıq, kritik düşüncə, problemlərin həlli və refleksiya kimi bacarıqları inkişaf etdirməyə yönəlib.

Müasir təlim metodlarının üstünlükləri: 1. Şagirdlərdə müstəqil düşünmə və tədqiqat aparma bacarığı formalaşır. 2. Əlaqə qurmaq, qərar vermək və ictimai bacarıqlar inkişaf edir. 3. Təlim həyatla əlaqələndirilir, real həyati bacarıqlar formalaşır. 4. Maraqlı və motivasiyaedici dərs mühiti yaranır. 5.Şagirdlər öyrənmə prosesində aktiv iştirakçıya çevrilirlər.

Müasir təlim metodlarının uğurla tətbiqi üçün müəllim yalnız bilik ötürən deyil, bələdçi, motivator və təşkilatçı rolunda çıxış etməlidir. Dərsin mərkəzində isə fəal, yaradıcı və düşünən şagird dayanmalıdır. Yeni təlim metodlarının tədris prosesinə daxil edilməsi məzmunun öyrənilməsində səmərəliliyin artırıl-

masına, şagirdlərin dərketmə fəaliyyətinə, onlarda yaradıcılıq qabiliyyətinin formalaşdırılmasına geniş imkanlar açır. Bu metodlardan məqsədyönlü şəkildə istifadə etməklə bütün pedaqoji texnologiyaların əsasında dayanan demokratikləşdirmə, humanistləşdirmə, diferensiallaşdırma, fərdiləşdirmə, inteqrasiya və humanitarlaşdırma prinsiplərini arzu olunan səviyyədə həyata keçirmək mümkündür. Təcrübə göstərir ki, fəal təlim zamanı şagirdlərin özünəinamı artır, şəxsiyyətlərarası münasibətlər yaxşılaşır, məktəbə və oxumağa meyil çoxalır. İnteraktiv təlim metodları yalnız yüksək səviyyədə əməkdaşlıq şəraitində qurulduğu halda səmərə verə bilər. Əməkdaşlıq isə o vaxt mümkündür ki, tərəflər arasında (müəllim-şagird, şagird-şagird) səmimiyyət, hörmət, ən başlıcası isə inam olsun. Humanistləşdirmə prosesinin komponentləri olan bu keyfiyyətlər olmadan interaktiv təlimdə əməkdaşlıqdan söhbət belə gedə bilməz. Tədris prosesində şagirdlərin aktiv fəaliyyətini təmin etmək, fəallığına və müstəqilliyinə maksimum üstünlük vermək interaktivliyin əsas məqsədlərindən sayılır. Yeni metodların ən təqdirolunası cəhətlərindən biri də təlimdə şagird fəallığının maksimum artırılmasıdır. Dərs prosesində şagird nə isə yeni bir şey öyrənibsə, müəyyən bilik və bacarığa yiyələnibsə, yoldaşları və müəllimləri ilə faydalı ünsiyyətə girə bilibsə, bir şəxsiyyət kimi qəbul edildiyini görübsə, deməli, həmin dərs səmərəli olmuşdur. Bu, hər bir müəllimin pedaqoji fəaliyyətinin ölçü vahidi kimi qəbul edilməlidir.

Ümumiyyətlə, dərsin təşkili zamanı elə metodları seçib tətbiq etmək lazımdır ki, öyrənənlərin müstəqil təfəkkürünün inkişafına şərait yaratmaq, idrak qabiliyyətini inkişaf etdirmək mümkün olsun. Ona görə də müəllimlər daim yeni yollar, ideyalar, sistemlər və yanaşmalar axtarışında olmalıdır. İnteraktiv metodları öyrənib təlim prosesində düzgün tətbiq etməyi bacarmalıdır. Yalnız fəal təlim metodlarından istifadəyə xüsusi

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 33-36**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 july 2025 / 33-36**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

diqqət yetirən, qabaqcıl ölkələrin təhsil sistemindəki mütərəqqi üsul və metodlardan xəbərdar olan və qazandıqları nəzəri bilikləri praktik fəaliyyətə çevirə bilən müəllim yenilikçi müəllim kimi yetirmələrinin sevimlisi ola bilər. Yaradıcı olmaq müəllim üçün önəmli xüsusiyyətdir. Yalnız bu yolla məktəbliləri yaradıcı və ruhlandırıcı metodlardan istifadə etməklə yüksək bilik qazanmağa həvəsləndirmək mümkündür.

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 37-38**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 july 2025 / 37-38**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Səadət Quliyeva**
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0000-0002-4785-6274
seadet.quliyeva00@mail.ru

# Milli mənəviyyatımızda dilin rolu

***Açar sözlər***: *milli mənəviyyat, tarix, inkişaf, dil, mədəniyyət*
***Keywords***: *national morality, history, development, language, culture*

Bilirik ki, hər bir xalq öz dili, adət-ənənələri ilə tanınır. Xalqın mənəviyyatı, ruhu məhz bu dildə öz əksini tapır. Dil formalaşdığı dövrdən başlayaraq cəmiyyət üzvləri arasında ünsiyyət rolunu daşımışdır. Cəmiyyətdə inkişaf edən dil aid olduğu xalqların keçmişi və tarixidir. Dil mənəviyyatımızın əsasıdır. Mənəvi aləmin nə dərəcədə zəngin olduğunu araşdırmaq məhz dilin məqsədi və inkişaf yoludur. Dil hər bir xalqın şüurunu özündə əks etdirir, bu isə dilin zənginləşməsi deməkdir. Dildən müxtəlif məqsədlər üçün istifadə edilir. Məsələn: Aristotel əsərində qeyd edirdi ki, dil başqalarını inandırmaq, tərbiyə məsələlərini həll etmək, o cümlədən insanların milli ruhda tərbiyə olunması üçün istifadə olunur.

E.Sepir göstərmişdir ki, dil maddi mədəniyyətin erkən vaxtlarından yaranmışdır. Burdan başa düşürük ki, dil olmasaydı, mədəniyyətin inkişafı baş verə bilməzdi. Alman alimi Vilhelm Fon Humboldt XIX əsrdə dillə təfəkkürün münasibətinə təsirini izah etmiş və onların dialektik vəhdətdə olduğunu qeyd etmişdir. Məhz o bütün dillər arasında əlaqələrin olduğunu aydınlaşdırmışdır (Axundov, 1992, s.79). Ferdinand de Sössür isə dili ictimai hadisə sayır və deyirdi: “Dil dilçiliyin yeganə obyektidir” (Qurbanov, 2004, s.115). Dil xarakter və

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

xüsusiyyətləri formalaşdıraraq, cəmiyyətdə ünsiyyət vasitələrinin tərkib hissəsinə çevirir (Babayev, 1992).

Dilimizin inkişafına nəzər salsaq görərik ki, ötən dövrlərdə xalqımız və dilimiz çətinliklərlə üzləşsə də, öz saflığını, milli ruhunu qoruyub saxlamış və inkişaf etdirmişdir. Məhz buna görə də, dil milli mənəviyyatın, şüurun, insan təfəkkürünün formalaşdığı cəmiyyətin zənginləşən lüğət tərkibinin mayasıdır. Ulu Öndərimiz Heydər Əliyev dil haqqında belə demişdir: "Hər bir millət öz dili ilə yaranır. Dilini unudan xalq öz milliliyini də unudar". Heydər Əliyevin dil sahəsində yürütdüyü siyasətində xalqın müstəqilliyi və onun davamlılığı böyük əhəmiyyət kəsb etmişdir. Ulu öndərin bütün fəlsəfi fikirləri xalqın milli dirçəlişinin oyanmasına əsaslanırdı. 9 avqust 2001-ci il, 30 sentyabr 2002-ci il, 2 yanvar 2003-cü ildə Ulu Öndərin verdiyi fərmanlar onun öz ana dilinə bəslədiyi rəğbətin nümunəsidir (Yusifov, 2003).

Heydər Əliyev 18 iyun 2001-ci il tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" verdiyi fərmanda dilin xalqın həyatında rolu, əhəmiyyətindən bəhs edərək demişdir: "Bütün tarixi mərhələlərdə dilimiz xalqın ən ağır günlərində onun milli mənliyini, gələcəyə olan ümidini, inamını qoruyub möhkəmlətmişdir, dili zəngin olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir" (Yusifov, 2003, s.23). Dil ictimai hadisədir, o bilavasitə mənəviyyatla bağlıdır. Azərbaycan dilinin bu günki səviyyəyə qalxması onun tarixi ilə bağlıdır və özündə minillik xüsusiyyətlərini qoruyub saxlamasıdır.

## Ədəbiyyat

1. Axundov, A.A. (1992). *Dil və mədəniyyət*.
2. Babayev, A.M. (1992). *Dilçiliyə giriş*.
3. Qurbanov, A. (2004). *Ümumi dilçilik*. I cild.
4. Yusifov, M. (2003). *Heydər Əliyev və azərbaycançılıq ideologiyası*.

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 39-41**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 july 2025 / 39-41**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Enes Yıldırım**
Bakı Dövlət Universiteti
doktorant
https://orcid.org/0000-0001-5258-4034
yildirimenes@mail.ru

# Türkiyənin Cənubi Qafqaz siyasətinin Avropa Birliyinə təsirləri

***Açar sözlər:*** *Cənubi Qafqaz, Türkiyənin xarici siyasəti, Avropa Birliyi, Zəngəzur dəhlizi, geosiyasi rəqabət, enerji təhlükəsizliyi, Aİ-Türkiyə münasibətləri*
***Keywords:*** *South Caucasus, Turkish foreign policy, European Union, Zangezur Corridor, Geopolitical rivalry, Energy security, EU–Turkey relations*

Türkiyə Cənubi Qafqazda həm tarixi əlaqələrə, həm də strateji əlaqələrə əsaslanan fəal xarici siyasət yürüdür. Xüsusilə 2020-ci ildə İkinci Qarabağ Müharibəsindən sonrakı dövrdə Türkiyə Azərbaycanla "Bir millət, iki dövlət" paradiqması çərçivəsində bölgədə hərbi, diplomatik və iqtisadi təşəbbüslərini intensivləşdirib. Bu hadisələr Avropa İttifaqının (Aİ) regional strategiyasına və münasibətlərinə də ciddi təsir göstərmişdir.

Aİ Cənubi Qafqaz üzrə ilk uzunmüddətli strategiyasını 20 may 2010-cu ildə "Aİ-nin Cənubi Qafqaz üzrə Strategiyası" adı altında dərc etmişdir. Strategiya regional təhlükəsizliyin təmin edilməsi, demokratikləşmə, qanunun aliliyi, insan hüquqlarının müdafiəsi və iqtisadi inteqrasiya məqsədlərini özündə ehtiva edir (Memmedli, 2022).

Bununla belə, Rusiyanın təsirindəki dəyişiklik və Türkiyənin 2020-ci ildən sonrakı dövrdə artan rolu Aİ-ni strategiyasına yenidən baxmağa vadar edib. Qarabağ

https://doi.org/10.36719/2789-6919/2025/XIV

məsələsində vasitəçilik təşəbbüsləri və yeni Ümumi Təhlükəsizlik və Müdafiə Siyasəti missiyaları ön plana çıxıb.

Türkiyənin də dəstəklədiyi "Zəngəzur dəhlizi" təşəbbüsü Qafqazı Qara dəniz vasitəsilə Türkiyəyə, yəni Aİ-yə birləşdirən nəqliyyat və enerji xətti yaratmaq məqsədi daşıyır. Aİ üçün bu vəziyyət həm fürsət, həm də çağırışdır: O, Xəzər resurslarının Aİ-yə çatması üçün alternativ yollar təqdim edir. Türkiyənin töhfələri ilə açılacaq dəhliz Aİ-Rusiya/İran istiqamətləri ilə rəqabət mühiti yaradacaq.

Aİ daxili və xarici qarşılıqlı əlaqələri artırarkən, Türkiyədən də fəal əməkdaşlıq tələb edir. 2025-ci ilin may ayında dərc edilən Carnegie Endowment təhlilində Cənubi Qafqazda yenidən formalaşan strateji transformasiya mühitində "Aİ və Türkiyənin əlaqələrini yenidən yoxlamaq imkanı var" deyərək Türkiyə ilə birgə strategiyanın hazırlanmasının vacibliyi vurğulanırdı (Shiriyev, 2025). Bunun əksinə olaraq, Aİ-nin Türkiyəyə qarşı tənqidi davam edir: Aİ-Türkiyə qaçqın sazişi ilə bağlı insan haqları yönümlü tənqidlər, eləcə də üzvlük danışıqlarının dalana dirənməsinə münasibət qarşılıqlı əlaqələrdə özünü göstərir.

Aİ sülh və sabitlik proseslərində fəal rol oynamağa çalışıb. 27 dekabr 2022-ci il tarixində Ermənistanın dəvəti ilə 23 yanvar 2023-cü il tarixindən etibarən Ermənistanda sülhün bərqərar olması üçün Aİ missiyası təyin edilib (European Union Mission in Armenia). Hazırkı missiya Ermənistana müsbət münasibət nümayiş etdirir və Ermənistanı günahsız kimi göstərir. Missiya obyektiv deyil. Üstəlik, 2024-cü ildə Avropa Parlamenti Azərbaycana qarşı sanksiya çağırışı edərək gərginliyin həllində Aİ-nin daha fəal rol oynamağa çalışıb və həmişə olduğu kimi Ermənistanı müdafiə edən bəyanatlar verib.

Türkiyənin Cənubi Qafqaz siyasəti xüsusilə enerji və coğrafi bütövlük baxımından Aİ-yə xarici siyasət inteqrasiyası üçün imkanlar yaratsa da, üzvlük gözləntiləri qarşısında Türkiyəyə

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

islahatçı təzyiqlər də yaradıb. Türkiyə Aİ-yə üzvlük prosesində tələb olunan islahatları həyata keçirsə də, Aİ Türkiyə Hesabatlarında demokratiya, qanunun aliliyi və xarici siyasətdə uyğunsuzluq kimi variantlardan bəhanə kimi istifadə edərək prosesi sabote edir (Tali, Özmen, 2021).

Türkiyənin Cənubi Qafqaz siyasətindəki fəallığı Aİ-nin regional strategiyasında ciddi sapmalara səbəb olub, rəqabət sahələrini, eləcə də əməkdaşlıq sahələrini üzə çıxarıb. Enerji dəhlizləri, siyasi təhlükəsizlik, diplomatik missiyalar və qaçqın konteksti kimi sahələrdə Türkiyə-Aİ əməkdaşlığı həm zərurət, həm də potensial baxımından zəngin məzmun daşıyır. Aİ-nin bu dinamikanı düzgün idarə etməsi regional sabitlik və Türkiyənin demokratik transformasiyası üçün həyati əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. European Union Mission in Armenia (https://en.wikipedia.org/wiki/European_Union_Mission_in_Armenia)
2. Memmedli, M. (2022), *Avrupa Birliği'nin Güney Kafkasya Politikası*.(https://www.researchgate.net/publication/375923308_AVRUPA_BIRLIGI'NIN_GUNEY_KAFKASYA_POLITIKASI)
3. Shiriyev, Z. (2025). *Why the EU Needs Turkey in the South Caucasus*. (Carnegie Europe Center)
4. Tali, R., Özmen, Y.P. (2021). *Avrupa Birliği'nin Güney Kafkasya Politikasının Ana Hatları*. (https://www.researchgate.net/publication/354545305_Avrupa_Birligi%27nin_Guney_Kafkasya_Politikasinin_Ana_Hatlari)

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 42-44**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 july 2025 / 42-44**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Kəmalə Əfəndiyeva**
AMEA-nın akademik Ziya Bünyadov adına
Şərqşünaslıq İnstitutu
doktorant
https://orcid.org/0000-0002-3789-2706
kamala.khudaverdiyeva@bk.ru

# Azərbaycan – Ermənistan münasibətlərinin Mərkəzi Asiya respublikalarının xarici siyasətinə təsiri

***Açar sözlər:*** *Azərbaycan-Ermənistan münasibətləri, Mərkəzi Asiya respublikaları, xarici siyasət, Zəngəzur dəhlizi, Türk Dövlətləri Təşkilatı*
***Keywords:*** *Azerbaijan-Armenia relations, Central Asian republics, foreign policy, Zangezur corridor, Organization of Turkic States*

Cənubi Qafqazda yerləşən Azərbaycan və Ermənistan arasında uzunmüddətli münaqişə bölgənin siyasi mənzərəsini müəyyənləşdirən əsas amillərdən biri olmuşdur. Xüsusilə bu münaqişə çərçivəsində yaşanan gərginliklər, yalnız ikitərəfli münasibətlərlə məhdudlaşmayaraq daha geniş coğrafiyada – o cümlədən Mərkəzi Asiya dövlətlərinin xarici siyasətində də öz izini buraxmışdır. Bu region ölkələri tarixi, mədəni və strateji cəhətdən Azərbaycanla sıx bağlara malik olmaqla yanaşı, ümumi təhlükəsizlik və əməkdaşlıq çərçivələrində regional sabitliyə xüsusi önəm verirlər. Bu səbəbdən Azərbaycan-Ermənistan münasibətlərində baş verən dəyişikliklər Mərkəzi Asiya respublikalarının diplomatik mövqelərinə, regional inteqrasiya təşəb-

https://doi.org/10.36719/2789-6919/2025/XIV

büslərinə və nəqliyyat-enerji layihələrinə birbaşa və dolayı təsir göstərməkdədir.

*Tarixi kontekst və regional aktorların rolu.* Azərbaycan-Ermənistan münasibətləri 1990-cı illərin əvvəllərindən etibarən münaqişə müstəvisində inkişaf etmiş, 2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsi ilə yeni mərhələyə qədəm qoymuşdur. Bu savaş nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmiş və Cənubi Qafqazın geosiyasi xəritəsində mühüm dəyişikliklər baş vermişdir (Cornell, 2011).

Bu dəyişikliklər təkcə regiondaxili deyil, həm də Mərkəzi Asiya dövlətləri üçün strateji əhəmiyyət kəsb etmişdir. Həm Rusiya, həm də Türkiyə kimi regional güclərin bu münasibətlərdəki rolunu nəzərə aldıqda, Mərkəzi Asiya dövlətlərinin Azərbaycan-Ermənistan xəttində müəyyən balans siyasəti yürütməyə çalışdığı müşahidə olunur.

*Azərbaycanla Mərkəzi Asiya Respublikaları arasında artan strateji əməkdaşlıq.* 44 günlük müharibədən sonra Azərbaycanın qələbəsi regionda yeni əməkdaşlıq imkanlarını ön plana çıxarmışdır. Qazaxıstan, Özbəkistan və Qırğızıstan kimi ölkələr Azərbaycanın ərazi bütövlüyünə açıq şəkildə dəstək ifadə etmiş, siyasi və humanitar jestlərlə bu mövqelərini təsdiqləmişlər. İşğaldan azad olunmuş ərazilərdə Qazaxıstanın təhsil, Özbəkistanın isə mədəniyyət sahəsində göstərdiyi dəstək və Azərbaycanın Türk Dövlətləri Təşkilatında fəallığı, regional əməkdaşlığın praktik nümunələri sırasındadır.

*Nəqliyyat və enerji layihələrində Azərbaycan-Ermənistan münasibətlərinin rolu.* Zəngəzur dəhlizi və "Orta Dəhliz" təşəbbüsü Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əlaqələrin yeni mərhələyə keçməsinə imkan yaradır. Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan bu layihələr Avropa ilə Asiyanı birləşdirən ticarət yollarını daha qısa və təhlükəsiz marşrutlarla təmin edir. Azərbaycan-Ermənistan münasibət-

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

lərinin normallaşması bu marşrutların tam gücü ilə işləməsi baxımından həyati əhəmiyyət daşıyır.

*Təhlükəsizlik və Geosiyasi Sabitlik Perspektivindən Yanaşma.* Azərbaycanın regional sabitliyin təmin olunması sahəsində atdığı addımlar və beynəlxalq hüquqa əsaslanan siyasəti Mərkəzi Asiya dövlətləri tərəfindən təqdir edilir. Bu dövlətlər beynəlxalq hüququn əsas prinsiplərindən biri olan ərazi bütövlüyünün qorunmasını öz milli maraqlarının ayrılmaz hissəsi kimi qəbul edirlər (Hunter, 2010).

Azərbaycan-Ermənistan münasibətləri Cənubi Qafqazla yanaşı, Mərkəzi Asiya regionunda da mühüm xarici siyasət faktoru kimi çıxış edir. Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında tarixi, mədəni və strateji yaxınlıq bu münasibətlərin inkişafında xüsusi rol oynayır. Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi və regional əməkdaşlıq təşəbbüsləri, Mərkəzi Asiya dövlətləri üçün iqtisadi və geosiyasi baxımdan cəlbedici bir tərəfdaşlıq imkanları yaratmışdır.

## Ədəbiyyat

1. Cornell, S.E. (2011). *Azerbaijan since independence*. M.E. Sharpe.
2. Hunter, S.T. (2010). *The South Caucasus: A geopolitical crossroads*. Routledge.

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 45-48**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 july 2025 / 45-48**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Aytac Şadiyeva**
Bakı Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0007-5637-5740
shinetomydarkness@gmail.com

# 44 günlük Vətən müharibəsinə Koreyanin mövqeyi

***Açar sözlər:*** *Azərbaycan, Koreya, Qarabağ, Ermənistan, Vətən müharibəsi*

***Keywords:*** *Azerbaijan, Korea, Karabakh, Armenia, Patriotic War*

Azərbaycan Respublikası beynəlxalq birliyin bütün üzvləri ilə balanslaşdırılmış siyasi və iqtisadi münasibətlər qurmuşdur. Bu baxımdan Koreya Respublikası ilə olan münasibətlər xüsusi maraq kəsb edir. Bildiyimiz kimi, Koreya ərazisi 1948-ci ildən iki yerə bölünmüşdür. Yarımadanın şimal tərəfində Koreya Xalq Demokratik respublikası (KXDR), cənub tərəfində isə Koreya Respublikası mövcuddur. Şimali Koreya (KXDR) qapalı idarə sisteminə malik olan sərt kommunizm rejimi ilə idarə olunduğu üçün, Azərbaycan Respublikası ilə əsasən Cənubi Koreya arasında daha dərin əlaqələr qurulmuşdur. Xalqı Altay dil ailəsinə mənsubdur - bu baxımdan iki xalq arasında mənəvi yaxınlıq da mövcuddur. İki müstəqil ölkə arasında 1991-ci ildən sonra diplomatik, siyasi, iqtisadi, mədəni sahələrdə münasibətlər genişlənməkdədir. Azərbaycanla Koreya Respublikası arasında diplomatik əlaqələr 1992-ci ilin mart ayının 23-də qurulmuşdur. İki ölkə arasında münasibətlərin inkişafı məqsədilə Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Koreya

https://doi.org/10.36719/2789-6919/2025/XIV

parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılmışdır (Azərbaycan-Cənubi Koreya münasibətləri, 2025).

2020-ci ildə II Qarabağ müharibəsi adı ilə tarixə düşən Vətən müharibəsində də Koreya Respublikası Azərbaycanın haqlı mövqeyini dəstəkləmişdir. 2020-ci il 27 sentyabr tarixində Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti təxribata cavab olaraq, Azərbaycan ordusunun başladığı əks-hücum əməliyyatı ilə tarixə II Qarabağ müharibəsi və ya Vətən müharibəsi adı ilə daxil olan müharibə başlamışdır. Vətən müharibəsi 2020-ci il 10 noyabra qədər davam etmiş və Ermənistanın işğal altında saxlamış olduğu bütün Azərbaycan ərazilərinin azad edilməsi ilə nəticələnmişdir. Azərbaycan öz ərazilərini işğaldan azad etdikdən sonra da iki ölkə arasında diplomatik əlaqələr fəallaşmışdır. 2021-ci il 27 oktyabr tarixində Koreya Respublikası Milli Assambleyasının deputatı, Koreya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Cunq Hiyonq Vətən müharibəsinin birinci ildönümü ərəfəsində Azərbaycanın Koreyadakı səfirliyinə məktub ünvanlayaraq 44 günlük müharibədə həlak olan şəhidlərimizlə əlaqədar dərin hüznlə başsağlığı verib (Koreya Milli Assambleyasının deputatı Azərbaycanın Vətən müharibəsi şəhidlərini yad edib, 2025). Əlavə olaraq məktubunda Azərbaycan-Koreya diplomatik əlaqələrinə də toxunulmuşdur. Cunq Hiyonq gələn il Koreya ilə Azərbaycan arasında diplomatik əlaqələrin 30 illiyinin qeyd olunacağını bildirmiş və bu hadisəni əhəmiyyətli tarixi hadisə kimi dəyərləndirmişdir. Qeyd edib ki, gələcəkdə ölkələrimiz arasında münasibətlərin inkişafına dəstək verilməsində, dostluq və əməkdaşlığın gücləndirilməsində, o cümlədən, işğaldan azad olunmuş Qarabağ bölgəsində sülhün qorunub saxlanılması və bərpa layihələrinin icrasında Koreya-Azərbaycan parlamentlərarası işçi qrupunun üzvü kimi öhdəsinə düşən vəzifəni layiqincə yerinə yetirəcək (Koreya Milli Assambleyasının

https://doi.org/10.36719/2789-6919/2025/XIV

deputatı Azərbaycanın Vətən müharibəsi şəhidlərini yad edib, 2025). Vətən müharibəsindən keçən illər ərzində də Koreyanın Azərbaycana siyasi dəstəyi davam etmişdir. 2022-ci ildə Cənubi Koreya mediası Azərbaycanın Vətən müharibəsində qazandığı Zəfərin ikinci ildönümünü qeyd etməsi ilə bağlı məqalə dərc etmişdir. Cənubi Koreyanın "Naewoeilbo" qəzeti və "Korea Post" media qrupuna aid xəbər portalları Koreya və ingilis dillərində "Azərbaycan Vətən müharibəsində qazandığı Zəfərin ikinci ildönümünü qeyd edir" başlıqlı məqalələr dərc etmişdir (Cənubi Koreya mediası:Azərbaycan Vətən müharibəsində qazandığı Zəfərin ikinci ildönümünü qeyd edir, 2025). Bu fakt Koreya Respublikasının birmənalı olaraq Azərbaycanı müdafiə etdiyini bir daha sübut edir. Məqalələrdə Azərbaycan ərazisinin təxminən 20 faizinin 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında qalması, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri də daxil olmaqla, beynəlxalq ictimaiyyətin işğala dərhal son qoyulması ilə bağlı qərarlarına Ermənistanın məhəl qoymaması öz geniş əksini tapmışdır. Burada həmçinin, iki ölkə arasında danışıqlar prosesinin Ermənistanın aqressiv yanaşması səbəbindən konkret nəticə verməməsi də vurğulanmışdır. Məqalələrdə qeyd olunur ki, 2 il əvvəl (2020-ci ildə) Ermənistanın növbəti təxribatlarına cavab olaraq, başlamış olan əks-hücum əməliyyatında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ermənistanın işğalına son qoymuş və ərazi bütövlüyünü bərpa etmişdir. Azərbaycan Respublikası təkbaşına BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edib (Cənubi Koreya mediası: Azərbaycan Vətən müharibəsində qazandığı Zəfərin ikinci ildönümünü qeyd edir, 2025). Koreya xalqı və Azərbaycan xalqı arasında dərin mənəvi bağlılıq mövcuddur. Digər tərəfdən Koreya Respublikası özü də separatizmdən əziyyət çəkir. Ölkə 1948-ci ildən bəri iki hissəyə bölünmüşdür.

Azərbaycan Respublikası ilə Koreya Respublikası (Cənubi Koreya) arasında dərin siyasi, diplomatik və iqtisadi münasibətlər mövcuddur. Koreya Respublikası sülhsevər bir dövlət olaraq, istər Azərbaycanla Ermənistan arasında olan və 1991-1994-cü illəri əhatə edən I Qarabağ müharibəsi dövründə, istərsə də 2020-ci ildə baş verən II Qarabağ və ya Vətən müharibəsi dövründə hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini müdafiə etmişdir. Başqa bir nöqteyi-nəzərdən yanaşdıqda isə, Azərbaycan Cənubi Qafqazın lider dövlətidir və Azərbaycanda, o cümlədən Cənubi Qafqazda sülh və sabitliyin mövcud olması Koreya Respublikasının maraqlarına tam uyğundur.

## Ədəbiyyat

1. *Azərbaycan-Cənubi Koreya münasibətləri*. (2025.08.06). https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan%E2%80%93C%C9%99nubi_Koreya_m%C3%BCnasib%C9%99tl%C9%99ri
2. *Cənubi Koreya mediası:Azərbaycan Vətən müharibəsində qazandığı Zəfərin ikinci ildönümünü qeyd edir*. (2025.08.06). https://seoul.mfa.gov.az/az/news/3181/cenubi-koreya-mediasi-azerbaycan-veten-muharibesinde-qazandigi-zeferin-ikinci-ildonumunu-qeyd-edir
3. *Koreya Milli Assambleyasının deputatı Azərbaycanın Vətən müharibəsi şəhidlərini yad edib*. (2025.08.06). https://meclis.gov.az/news.php?id=3580&lang=az

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 49-51**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 july 2025 / 49-51**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Şəlalə Əliyeva**
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0009-0007-9948-9465
shalalaaliyeva90@gmail.com

# Xarici dilin tədrisində sosial medianın rolu

***Açar sözlər:*** *sosial media, xarici dil, onlayn öyrənmə, dil bacarıqları*

***Keywords:*** *social media, foreign language, learning online, language skills*

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının sürətlə inkişaf etməsi ilə yanaşı, sosial media da insanların gündəlik həyatının ayrılmaz hissəsinə çevrilmişdir. Bu dəyişikliklər, xüsusilə də təhsil sahəsində yeni imkanların yaranmasına səbəb olmuşdur. Ənənəvi tədris metodları ilə yanaşı, sosial media platformaları da bilik və bacarıqların mənimsənilməsi prosesində mühüm rol oynamağa başlamışdır. Bu kontekstdə ingilis dili kimi beynəlxalq bir dilin öyrənilməsində sosial medianın əhəmiyyəti xüsusilə diqqətçəkicidir.

Sosial medianın verdiyi imkanlar arasında istifadəçinin yaşından, coğrafi mövqeyindən və maddi vəziyyətindən asılı olmayaraq istənilən vaxt və məkanda ingilis dili mənbələrinə çıxış əldə etməsi xüsusi önəm daşıyır. YouTube videodərsləri, Instagram və TikTok-da qısa öyrədici videolar, Facebookdakı dil öyrənmə qrupları, Reddit forumlarındakı müzakirələr və Twitter-də gündəlik dil praktikası bu sahədə geniş istifadə olunan vasitələr sırasındadır. Belə platformalarda orijinal tələffüz, gündəlik danışıq formaları, yeni söz və ifadələr, həmçinin mədəni kontekstlər daha real və canlı şəkildə təqdim olunur. Sosial medianın tədrisdə tətbiqi zamanı yalnız

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

üstünlüklərlə kifayətlənmək düzgün olmazdı. Dilin qeyri-standart istifadəsi, yanlış qrammatik strukturların yayılması və nəzarətsiz məzmunlar öyrənmə prosesinə mənfi təsir göstərə bilər. Bu səbəbdən, sosial medianın təhsil məqsədli istifadəsi zamanı həm interaktivliyi, həm də məzmun keyfiyyətini düzgün balanslaşdırmaq vacibdir.

Sosial medianın həyatın bütün sahələrinə təsir etməsi artıq danılmaz faktdır. Məsələn, siyasi kampaniyalar sosial media üzərindən aparılır, ictimai rəy bu platformalarda formalaşır, brendlər müştərilərlə birbaşa əlaqə saxlayır, müəllim və tələbələr öyrənmə prosesində sosial mediadan interaktiv resurs kimi istifadə edir, hətta psixoloji dəstək və motivasiya mənbələri də bu platformalarda paylaşılır. Beləliklə, sosial media insanların həyatında informasiya əldə etmə, sosiallaşma, ictimai müzakirələrdə iştirak etmə və bilik mübadiləsi baxımından əsas mərkəzə çevrilmişdir. Eyni zamanda, sosial medianın həyatımıza daxil olması bəzi riskləri də özü ilə gətirmişdir. Məlumat bolluğunda yanlış və dezinformasiyanın yayılması, şəxsi həyatın gizliliyi ilə bağlı problemlər, asılılıq yaradan davranışlar və psixoloji təsirlər kimi məsələlər bu platformaların tənqid obyektinə çevrilməsinə səbəb olmuşdur. Lakin bütün bu mənfi cəhətlərə baxmayaraq, sosial medianın XXI əsr insanının sosial varlığına təsiri müsbət tərəfi ilə daha çox qiymətləndirilir. Çünki sosial media hər bir fərdi fikir azadlığı, məlumat paylaşımı və ictimai dialoq üçün güclü vasitələrlə təmin edir.

Sosial mediada müəllif və mənbə yoxlaması, adətən, istifadəçilərin diqqətindən yayınır. Məlumatların “populyar” olması onların “doğru” olması anlamına gəlmir. Bu səbəbdən, tədris məqsədilə sosial mediadan istifadə edən öyrənənlər və ya müəllimlər mənbə seçimində daha diqqətli və seçici olmalı, yalnız tanınmış tədris kanallarına, sertifikatlı müəllimlərə və elmi əsaslara malik mənbələrə üstünlük verməlidirlər.

Bu risklərə qarşı mübarizə aparmaq üçün rəqəmsal savadlılıq, öyrənmə vərdişlərinin planlaşdırılması və vaxt idarəetməsi bacarıqları öyrənənlərə öyrədilməli və sosial media tədrisə məqsədyönlü inteqrasiya edilməlidir.

Beləliklə, sosial media tədrisdə güclü imkanlar təqdim etsə də, onun düzgün və şüurlu şəkildə istifadəsi vacib şərtdir. Dil xətalarının və qeyri-standart istifadənin yayılması, nəzarətsiz və yanlış məlumat riski, eləcə də psixoloji asılılıq və diqqət yayımı kimi məhdudiyyətlər öyrənmə keyfiyyətinə mənfi təsir göstərə bilər. Buna görə də sosial medianın tədrisə inteqrasiyası zamanı kritik yanaşma, mənbə yoxlaması və məqsədli istifadə strategiyaları formalaşdırılmalı, müəllim və öyrənənlər bu barədə maarifləndirilməlidir.

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 52-54**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 july 2025 / 52-54**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Banovsha Azizli**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0005-2073-4401
benovshe.rustemli@gmail.com

# Degrees of Comparison of Adjectives

***Keywords:*** *positive, superlative, comparative, intensity, quality, degree*
***Açar sözlər:*** *adi, üstünlük, müqayisə, intensivlik, keyfiyyət, dərəcə*

Adjective is one of the main parts of speech. İt describes the quality or characteristic of an object or a person. In English, there are 3 degrees of adjectives: positive, comparative, and superlative.

*Positive degree* - The positive degree is the basic form of an adjective. In the positive degree, adjectives do not take any suffix. Ex: Do you see that high building? In this degree, adjectives are used with as...as (kimi), not as... as, not so...as (kimi deyil) to show whether a person or an object has the same quality or not. Ex: not as...as / not so...as – shows less of a quality: *He is not as fast as his friend.* The adverbs very, too, quite, so, rather, enough are used before adjectives they modify. As to so and such, So is used with adjectives and adverbs, but Such modifies noun. Ex: "*We were so happy to meet them. She was such a polite girl"*

*Comparative degree* - The comparative degree of adjectives plays an essential role in English grammar by providing speakers with a chance and writers to express varieties in qualities between two entities. The morphological formation, syntactic structure, and semantic function of the comparative degree has

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

its importance in communication and language learning. The comparative degree typically is used to indicate a higher or lower degree of a quality relative to another noun or pronoun. The formation depends on the length and phonological characteristics of the adjective: Short adjectives (usually one syllable) form the comparative by adding the suffix -er. *Example*: *tall → taller*, *fast → faster*; For adjectives ending with -e, only -r is added. *Example*: *large → larger*; When a one-syllable adjective ends with a single consonant preceded by a single vowel, the consonant is doubled before adding -er. *Example*: *big → bigger*; Two-syllable adjectives ending in -y change the -y to -i and add -er. *Example*: *happy → happier*: Long adjectives (usually two or more syllables, except those ending in -y) form the comparative with the word more placed before the adjective. *Example*: *beautiful → more beautiful*, *difficult → more difficult*.

Comparatives are used to compare two entities and typically require the conjunction than to introduce the second item in the comparison. *Example*: She is taller than her sister. To increase or decrease the degree of comparison of an adjective, words like much, far, a lot (for increase), and a bit, a little, slightly (for decrease) are used."

*Superlative degree* - The superlative degree indicates that an object or person has the highest quality within its class. For all one-syllable adjectives and two-syllable adjectives ending in -y, -er, -ow, or -le, the superlative is formed by adding '-est' to the end of the adjective. The superlative degree is used when comparing three or more entities and is usually preceded by the definite article the. *Example*: She is the tallest student in the class. The superlative degree is usually utilized in sentences containing words and phrases such as *'has ever', 'have ever', 'had ever', 'in', 'on', 'at', 'of all', 'one of', and 'among'*. There are some

***Elm və Təhsilin Əsasları* XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 52-54**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 july 2025 / 52-54**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

irregular adjectives that must be memorized: *good - better the best; bad – worse – the worst; little– less– the least; many/much more– the most.*

In conclusion, the superlative degree is necessary for showing absolute comparisons among multiple entities. Comprehending its formation and correct usage enhances both written and spoken English, allowing for precise and effective communication.

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 55-57**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 july 2025 / 55-57**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Fatma Əmirova**
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0009-0009-6905-7244
amirova.fatima97@gmail.com

# Azərbaycan və alman dillərində ixtisar olunan və qısaldılan sözlərin yazılış qaydaları haqqında

***Açar sözlər:*** *ixtisar, termin, şəkilçi, dil, qayda, qərar*
***Keywords:*** *abbreviation, term, suffix, language, rule, decision*

Nazirlər Kabinetinin təsdiqlədiyi Azərbaycan dilinin orfoqrafiya normalarına əsasən ixtisar olunan və qısaldılan sözlərin yazılış qaydaları müəyyənləşib. Tam ixtisarlar və qısaltmalar aid olduqları sözlərə uyğun olaraq böyük hərflə yazılır. Məsələn: AR – Azərbaycan Respublikası, BMT – Birləşmiş Millətlər Təşkilatı, MM - Milli Məclis, DİN – Daxili İşlər Nazirliyi, DYP – Dövlət Yol polisi və s. Tam ixtisarlar ümumi isimlərə aid olduqda kiçik hərflə yazılır: metr – m., cild – c., və s. – və sairə kimi göstərilir. Yarımçıq ixtisarlar da aid olduqları sözlərə uyğun olaraq böyük və kiçik hərflərlə, mürəkkəb adların tərkib hissələridirsə, bitişik yazılır: məsələn, akademik – akad., dosent – dos., professor – prof., Azərbaycan Nəşriyyatı - Azərnəşr və s. (https://sia.az). Yeni qaydalara əsasən ixtisarlara əlavə edilən şəkilçilər son səsin tələffüzünə uyğun olaraq yazılır: Azərbaycan Milli Elmlər Akademiyası – AMEA-dan; Müstəqil Dövlətlər Birliyi – MDB-nin və s. Sözlərin qısa yazılışı həmişə diqqət mərkəzindədir.

Daşınmaz əmlak sahəsinə aid olan və tez – tez rast gəlinən sözlərin açmasını alman və Azərbaycan dillərində göstərək:

https://doi.org/10.36719/2789-6919/2025/XIV

1.Eg – das Erdgeschoss – 1-ci mərtəbə; 2.Og – das Obergeschoss – yuxarı mərtəbə; 3.Dg – das Dachgeschoss – çardaq; 4.KM – die Kaltmiete – soyuq kirayə (kommunal xərclərsiz kirayə); 5.WM – die Warmmiete – kommunal xərc daxil olan kirayə; 6.NB – die Nebenkosten (Betriebskosten) – əməliyyat xərcləri (su, işıq, zibil, internet və s.) (https://objego.de); 7.KT – die Kaution – depozit; 8.EBK – die Einbauküche – mətbəx mebeli; 9.TB – das Tageslichtbad – pəncərəsi açıla bilən vanna otağı; 10.FBH – die Fußbodenheizung – döşəmə altı istilik sistemi; 11.TG – die Tiefgarage – yeraltı qaraj; 12.BLK – der Balkon – eyvan; 13.HT – die Haustiere – ev heyvanları; 14.MFH – das Mehrfamilienhaus – çox ailəli yaşayış evi; 15.DH – das Doppelhaus – bir-birinə bitişik tikilmiş iki yaşayış binası; 16.EFH – das Einfamilienhaus – bir ailəli ev; 17.RH – das Reihenhaus – sıra ev (https://geni.us/b1-kurs). Dein Sprachcoach Maria.

Dil sahəsində tez-tez rastlaşdığımız terminlər: dt. – deutsch – alman; eng. – englisch – ingilis; frz. – französisch – fransız; gr. – griechisch – yunan; lat. – latein – latınca; sp. – spanisch – ispanca; tschech. – tschechisch – çex dilində və s.

Religion – din; Kath. – katholisch – katolik; ev. – evangelisch – protestant; A.T. – Altes Testament – Əhdi-ətiq, müqəddəs kitabın qədim hissəsi; N.T. – Neues Testament – Əhdi-cədid, müqəddəs kitabın yeni hissəsi; v. Chr. – vor Christus – Məsihdən əvvəl; n. Chr. – nach Christus – Məsihdən sonra.

Wörterbuch – lüğətlərdə tez - tez rastlaşdığımız terminlər: Sg – Singular – tək; Pl - Plural – cəm; m. – männlich – kişi cinsi; w. – weiblich – qadın cinsi; s. – sächlich – orta cins; a – Adjektiv – sifət; adv. – Adverb – zərf; cj – konjunktion – bağlayıcı; com. – komporativ – müqayisə dərəcəsi; imp. – İmperativ - əmr forması; impf. – İmperfekt – sadə keçmiş; inf. – İnfinitiv – felin

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

məsdər forması; int. – İnterjektion – nida; Prp. – Präposition – sözönü; vt. – transitivies Verb – təsirli feil; ivt. – intransitivies Verb – təsirsiz feil (Mehdiyev, 1963).

## Ədəbiyyat

1. Mehdiyev, C. (1963). *Deutsch – Aserbaidschanisches Wörterbuch*.
2. https://sia.az
3. https://www.youtube.com/watch?v=qFB3FlaMUU8
4. https://geni.us/b1-kurs

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 58-60**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 july 2025 / 58-60**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Gülöyşə Əhmədzadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0000-0003-4190-4017
gulu010894@gmail.com

# Azərbaycan filologiyasında monoloji nitqin tədqiqi xüsusiyyətləri

***Açar sözlər:*** *nitq mədəniyyəti, Azərbaycan filologiyası, dilçilik, kommunikativ yanaşma, funksional üslub, dram əsərlərində monoloq*

***Keywords:*** *speech culture, Azerbaijani philology, linguistics, communicative approach, functional style, monologue in dramatic works*

Nitq insan fəaliyyətinin əsas ünsiyyət vasitəsidir və onun müxtəlif formaları dilçilik elminin tədqiqat obyektidir. Bu formalar içərisində monoloji nitq xüsusi yer tutur. Monoloji nitq bir nəfərin fasiləsiz şəkildə fikir və düşüncələrini ifadə etdiyi nitq növüdür. Azərbaycan filologiyasında monoloji nitq müxtəlif aspektlərdən – sintaktik quruluş, üslubi xüsusiyyətlər, funksional istiqamət və ədəbi təzahür baxımından araşdırılmışdır. Bu tezisdə monoloji nitqin mahiyyəti, əsas xüsusiyyətləri və Azərbaycan dili və ədəbiyyatında oynadığı rol geniş şəkildə təhlil olunur.

Monoloji nitq - danışanın qarşılıqsız, fasiləsiz və məqsədyönlü nitq fəaliyyəti olub, əsasən mühazirələrdə, bədii təsvirlərdə, ictimai çıxışlarda və daxili düşüncə monoloqlarında istifadə olunur. Dialoji nitqdən fərqli olaraq, burada ikili qarşılıqlı ünsiyyət yoxdur.

*Əsas xüsusiyyətləri:* Məqsədyönlü və ardıcıl fikir axını; Sintaktik mürəkkəblik və fikir tamamlığı; Emosional zənginlik

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

və bədii vasitələrdən istifadə; Nitq strukturunun əvvəlcədən planlaşdırılması; Kommunikativ vahidlik və məntiqi bütövlük.

Monoloji nitq bir çox hallarda *nitq mədəniyyətinin, bədii təxəyyülün və sosial mövqeyin ifadə vasitəsi* kimi çıxış edir. Azərbaycan filologiyasında monoloji nitqin tədqiqi dilçilik, üslubiyyat və ədəbiyyat nəzəriyyəsi çərçivəsində aparılmışdır.

a) Dilçilik və sintaksis baxımından: Monoloji nitqdə istifadə olunan mürəkkəb cümlə quruluşları, cümlələrarası əlaqə vasitələri, intonasiya və ritm kimi sintaktik xüsusiyyətlər bir çox tədqiqatlarda əsas mövzulardan biri olmuşdur. M.Şirəliyev, F.Qasımzadə, R.Məmmədov kimi alimlərin əsərlərində bu istiqamətdə dəyərli analizlər təqdim olunmuşdur.

b) Üslubi və funksional aspekt. Monoloji nitq müxtəlif funksional üslublarda fərqli formalarda çıxış edir. Elmi üslubda-informasiya təqdimatı; publisistik üslubda-inandırma və təsir; bədii üslubda isə obrazın psixoloji durumunu çatdırmaq məqsədini daşıyır. Bu baxımdan N.Məmmədli, M.Seyidov, T.Hacıyev kimi alimlərin tədqiqatları xüsusi əhəmiyyət kəsb edir.

c) Kommunikativ yanaşma və müasir diskurs nəzəriyyəsi. Müasir dövrdə praqmatik və kommunikativ yanaşmalar çərçivəsində monoloji nitqdə niyyət, məqsəd, dinləyiciyə təsir kimi amillər önə çəkilir. Bu xüsusilə natiqlik, pedoqoji nitq, KİV çıxışları sahələrində aktuallıq daşıyır.

Azərbaycan ədəbiyyatında monoloji nitq obrazın daxili aləmini açmaq, psixoloji gərginlik yaratmaq **və** ictimai fikir ifadə etmək vasitəsi kimi geniş tətbiq olunur. *Nümunələr:* Cəlil Məmmədquluzadə əsərlərində monoloqlar ictimai tənqidin ifadə vasitəsi kimi çıxış edir. İlyas Əfəndiyev və Anar kimi yazıçılar daxili monoloq vasitəsilə obrazın psixoloji portretini formalaşdırır. Dram əsərlərində, xüsusilə Üzeyir Hacıbəyov, Sabit Rəhman kimi müəlliflərdə monoloji nitq tamaşaçının emosional əlaqəsini gücləndirmək üçün istifadə olunur.

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

Bu nümunələr göstərir ki, monoloji nitq yalnız dil vasitəsi deyil, eyni zamanda bədii ifadə və dünya görüşünün təqdimat alətidir.

| **Monoloq növü** | **İstifadə sahəsi** | **Funksiyası** |
|---|---|---|
| Elmi monoloq | Mühazirələr, konfrans çıxışları | Məlumatvermə, izah |
| Bədii monoloq | Ədəbiyyat, psixoloji təsvirlər | Emosional və daxili dünyanı çatdırmaq |
| Dramatik monoloq | Teatr əsərləri | Konfliktin və duyğu-nun təzahürü |
| Publisistik monoloq | KİV, siyasi nitqlər | Təsir və yönləndirmə |
| Daxili monoloq | Psixoloji nəsr | Şəxsin daxili düşüncə-lərini çatdırmaq |

Azərbaycan dilinin tədrisində monoloji nitqin inkişafı xüsusi əhəmiyyət kəsb edir. Ali məktəblərdə “Nitq mədəniyyəti”, “Üslubiyyat”, “Şifahi çıxış və təqdimat” fənləri çərçivəsində tələbələrə ardıcıl, məntiqi və ifadəli danışıq bacarığı aşılanır. Monoloji nitqin tədrisi həm də natiqlik mədəniyyəti, jurnalistika, tədris fəaliyyəti və ictimai çıxışlar sahəsində peşəkar nitq vərdişlərini formalaşdırır.

Monoloji nitq Azərbaycan filologiyasında dilin funksional və bədii imkanlarını əks etdirən əsas tədqiqat mövzularından biridir. Bu nitq forması həm ədəbi yaradıcılıqda, həm də praktiki ünsiyyət sahələrində şəxsiyyətin özünüifadə vasitəsi kimi çıxış edir. Müasir yanaşmalar onun yalnız sintaktik deyil, həm də kommunikativ, üslubi və diskursiv ölçülərini ön plana çəkir. Beləliklə, monoloji nitqin tədqiqi Azərbaycan dili və ədəbiyyatının zənginliyini və dinamik inkişafını əks etdirir.

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 61-64**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 july 2025 / 61-64**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Раънохон Абдуллаева**
Университет Мировой Экономики и Дипломатии
исследователь
https://orcid.org/0009-0003-1739-8916
abdullayevarano.2012@gmail.com

# Перспективы и участие Узбекистана в Организации Тюркских Государств: анализ с современной точки зрения

***Ключевые слова:*** *Узбекистан, Азербайджан, Организации тюркских государств, внешняя политика, социально-культурные связи*

***Açar sözlər:*** *Özbəkistan, Azərbaycan, Türk Dövlətləri Təşkilatı, xarici siyasət, sosial-mədəni əlaqələr*

***Keywords:*** *Uzbekistan, Azerbaijan, Organization of Turkic States, foreign policy, socio-cultural relations*

С точки зрения новейшей истории, в последние годы в Узбекистане реализуются системные реформы, направленные на либерализацию и модернизацию национальной экономики, обеспечение её устойчивого развития и последовательную интеграцию в мировые экономические отношения. При этом наблюдается активизация не только двустороннего, но и многостороннего формата международных взаимодействий. В условиях трансформации международных отношений Узбекистан, официально присоединившийся к Организации тюркских государств (ОТГ), стремится играть более активную роль в её рамках.

С момента избрания Шавката Мирзоева на пост Президента в 2016 году, в стране были инициированы

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

масштабные реформы в различных сферах. Приоритетом стало налаживание и стратегическое развитие отношений с соседними государствами Центральной Азии. В то же время, взаимоотношения с Турцией и Азербайджаном вышли на новый уровень развития. В рамках ОТГ отношения между Узбекистаном и Азербайджаном продолжают динамично развиваться. Регионально ориентированная внешнеполитическая доктрина, сформированная под руководством Президента, выдвинувшего более 300 инициатив, рассматривается как образец регионального сотрудничества. Подход к решению проблем с региональной точки зрения получает положительное признание на международной арене. Совпадение позиций Узбекистана и стран-членов ОТГ по ключевым международным и региональным вопросам создает благоприятные условия для выработки взаимовыгодных решений.

15 октября 2019 года на VII саммите в Баку Узбекистан официально присоединился к Тюркскому совету в качестве полноправного члена. Это событие можно расценивать как отражение коренных изменений во внешнеполитическом курсе страны (Кадыров, 2023). Активное участие в международных организациях и многовекторная внешняя политика обеспечивают Узбекистану возможность занять достойное место в глобальном сообществе. Сотрудничество в рамках Организации тюркских государств способствует более тесной интеграции Узбекистана с Азербайджаном и Турцией, а также усиливает экономическую взаимозависимость. В последние годы наблюдается интенсификация экономического, политического и гуманитарного взаимодействия между государствами, что способствует формированию новых путей взаимосвязи. ОТГ служит механизмом поддержки всестороннего

https://doi.org/10.36719/2789-6919/2025/XIV

сотрудничества между независимыми государствами с общей языковой, религиозной и культурной основой (Абдуллаева, 2024).

С момента вступления Узбекистана в ОТГ тематика саммитов, их влияние и охват участников заметно расширились. Даже в период пандемии встречи проводились в онлайн-формате, демонстрируя солидарность тюркских народов, взаимную поддержку и готовность к гуманитарной помощи в кризисных условиях. Организация принимает все более системный характер и охватывает широкий спектр взаимодействий, включая социально-культурные связи, лежащие в её основе.

Присоединение Узбекистана к Тюркскому совету также связано с намерением сохранить общее культурное и историческое наследие тюркоязычных государств. Общие исторические ценности должны служить духовной основой укрепления сотрудничества и сближения между этими странами (Абдуллаев, 2019). Многовековые национальные традиции, присущие всем тюркским народам, представляют собой мощный источник духовности и идентичности.

В условиях современного мира, насыщенного вызовами и угрозами, молодежь сталкивается с рисками, связанными с воздействием разрушительных массовых культурных явлений. В этом контексте ОТГ играет особую роль. Как отмечают отечественные исследователи, её деятельность особенно важна в условиях угрозы утраты ценностей под влиянием массовой культуры, поскольку способствует сохранению уникального культурного единства наших народов (Хакбердиев, Мадаминова, 2022). Это требует особого внимания, так как в последние годы усиливаются вызовы, связанные с проникновением чуждых, ментально несовместимых идей, способных подорвать наши

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

традиционные ценности. Необходимо формировать у молодежи иммунитет к этим вызовам. Сохранение и передача исторических, культурных и национальных ценностей будущим поколениям — важная задача, в решении которой ОТГ может стать эффективной платформой. Противостояние негативным и опасным аспектам массовой культуры требует коллективных усилий и сотрудничества. Это путь к поиску совместных решений современных вызовов и достижению более устойчивых результатов.

## Литература

1. Абдуллаев, Ш. (2019). Uzbekistan in the Turkic Council: common interests, opportunities and potential for cooperation. *International Relations: Politics, Economics, Law*, №2. https://uzjournals.edu.uz/intrel/vol2019/iss2/1
2. Абдуллаева, Р. (2024). Davlatlararo munosabatlarda xalqaro tashkilotlarning o‘rni: iqtisodiy, ijitimoiy, madaniy va tarixiy tahlil. *Вестник молодых ученых,* №3(4), с. 98.
3. Кадыров, А. (2023). *Strengthening Uzbekistan's international political and economic positions in the context of chairing the Turkic States Organization*. Институт стратегических и межрегиональных исследований при Президенте Республики Узбекистан. https://isrs.uz
4. Хакбердиев, К., Мадаминова, Д. (n.d.). *Участие Узбекистана в ОТГ: историческая необходимость и общность интересов*. https://uza.uz/ru/posts/uchastie-uzbekistana-v-otg-istoricheskaya-neobxodimost-i-obschnost-interesov_424458

**_Elm və Təhsilin Əsasları_ XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 65-68**
**_Fundamentals of Science and Education_ XIII International Scientific Conference**
**01 july 2025 / 65-68**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Aysu Musayeva**
Bakı Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0009-4501-9454
aysu.musayeva289@gmail.com

# Türkiyənin müasir siyasi vəziyyətinin ada turizminin inkişafına təsiri

***Açar sözlər:*** *siyasi sabitlik, Türkiyə turizm siyasəti, yerli idarəetmə və mərkəzi hakimiyyət, diplomatik münasibətlər və turizm, turizm və iqtisadi qeyri-sabitlik*

***Keywords:*** *political stability, tourism policy in Turkey, central-local governance relations, diplomatic relations and travel flows, tourism and economic instability*

Turizm insanların yalnız bir yerdən digərinə səyahət etməsi deyil, eyni zamanda mədəniyyətlərin qovuşması, iqtisadi canlanma və sosial rifahın artması üçün bir vasitədir. Bu sahə xüsusilə təbii resursları və coğrafi izolyasiyası ilə seçilən ada bölgələrində daha fərqli cəhətləri ilə ön plana çıxır (UNWTO, 2023). Son illərdə Türkiyədə baş verən siyasi proseslər yalnız daxili idarəetmə sisteminə deyil, eyni zamanda turizm sektoruna da müxtəlif səviyyədə təsir göstərib. Xüsusilə ada turizmi kimi həssas sahələr bu təsirə daha dərindən məruz qalır. Siyasi qərarlar bəzi adalarda investisiya dinamikasını dəyişmiş, xarici turistlərin davranışlarına və turizm layihələrinin həyata keçirilməsinə bilavasitə təsir etmişdir. Eyni zamanda Türkiyənin Avropa İttifaqı və qonşu dövlətlərlə münasibətləri, səyahət rejimi və beynəlxalq imicin formalaşmasına təsir edən əsas amillərdən biri olmuşdur (Erdoğan, 2023; TÜİK, 2024).

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

Bu tədqiqatın məqsədi Türkiyənin müasir siyasi vəziyyətinin ölkədəki ada turizminə göstərdiyi birbaşa və dolayı təsirləri araşdırmaq, həm daxili siyasi qərarların, həm də xarici siyasət strategiyalarının ada bölgələrinin turizm inkişafına necə yön verdiyini təhlil etməkdir. Bu yanaşma, ada turizmini daha dərin və real kontekstdə anlamağa imkan verəcəkdir.

Xüsusilə Avropa və Skandinaviya ölkələrindən gələn turistlər üçün adalar cəlbedici istiqamətlər hesab olunur. Türkiyənin bu ölkələrlə münasibətləri gərginləşdikcə, media və diplomatik xəbərdarlıqlar nəticəsində turistlərin səfər planlarında azalma müşahidə olunur. Əgər gələcəkdə Türkiyə-AB münasibətlərində siyasi böhran dərinləşərsə, ada bölgələrindəki otellər, restoranlar və xidmət müəssisələri mövsümdən kənar fəaliyyətlərlə ayaqda qalmaqda çətinlik çəkə bilər (European Commission, 2024; Global Risk Insights, 2024).

Risklərin qiymətləndirilməsi - yerli idarəetmə hüquqlarının mərkəz tərəfindən məhdudlaşdırılması, infrastruktur layihələrinin mərkəzi qərarlarla yönəldilməsi, beynəlxalq diplomatik gərginlik fonunda turist axınının azalması.

Mümkün proqnozlar: Türkiyə–Avropa münasibətlərində sabitləşmə müşahidə olunarsa, ada bölgələrində turist sayında artım gözlənilir. Lakin bu, infrastruktur üzərində əlavə yüklənmə yarada bilər. Yerli əhalinin maraqları nəzərə alınmadan verilən qərarlar sosial narazılıq və turizm brendinin zəifləməsi ilə nəticələnə bilər.

2025-ci ilin ilk yarısı Türkiyə üçün həm daxili, həm də xarici siyasətdə gərgin və dəyişkən keçməkdədir. 2023 seçkilərindən sonra Rəcəb Tayyib Ərdoğanın prezidentliyi yenilənmiş olsa da, ölkədə siyasi balans ciddi şəkildə dəyişib. Müxalifət partiyalar bir sıra böyük şəhərlərdə və sahilyanı bölgələrdə, o cümlədən adalarda güclü mövqe qazanmışdır. Bu, mərkəzi hakimiyyətlə yerli idarəetmə orqanları arasında idarəetmə fərqləri və resurs

bölgüsü üzrə ziddiyyətlərə səbəb olmuşdur (TÜİK, 2024; World Bank, 2023). Ötən ilin sonlarında lirənin dəyərinin yenidən ciddi şəkildə düşməsi, inflyasiya səviyyəsinin 60%-ə yaxınlaşması və işsizlik göstəricilərinin artması ilə bu il hökumət turizmi iqtisadi çıxış yolu kimi yenidən prioritet sahəyə çevirib. Xüsusilə turizm bölgələrində dövriyyə vergisi güzəştləri, yerli sahibkarlara kredit imkanları və vizaların sadələşdirilməsi kimi təşviq paketləri təqdim olunub.

2025-ci ilin əvvəlində xüsusilə Çanaqqala, İzmir və Muğla bələdiyyələri ilə mərkəzi hökumət arasında turizm gəlirlərinin bölgüsü, sahil zonalarının özəlləşdirilməsi və ətraf mühitin qorunması məsələləri üzrə münaqişələr yaşanmaqdadır. Bu tip siyasi gərginliklər, xüsusilə ekoloji həssas adalarda (Bozcaada, Gökçeada, Marmarisə yaxın adalar) yerli əhalinin etirazlarına və mediada mənfi xəbər axınına səbəb olmuşdur (T.C. Kültür ve Turizm Bakanlığı, 2022; Çevre ve Şehircilik Bakanlığı, 2024).

Hazırda siyasi gündəmdə xüsusilə miqrasiya sazişlərinin yenilənməsi və enerji əməkdaşlığı fonunda Türkiyənin Avropa İttifaqı ilə münasibətləri yenidən qurulur. Bu, Almaniya, Fransa və Hollandiya kimi ölkələrdən gələn turist axınında artımla nəticələnir. Lakin mart ayında İsrail ilə diplomatik gərginliyin yenidən alovlanması və Yaxın Şərqdəki münaqişələrin Türkiyənin daxili təhlükəsizliyinə təsir riski, bəzi ölkələrdə (İsveç, Kanada, Norveç) Türkiyəyə səfər barədə xəbərdarlıqların yayılmasına səbəb olmuşdur.

Yekun olaraq qeyd etmək lazımdır ki, 2025-ci ilin siyasi gündəmi Türkiyədə ada turizmi üçün həm fürsət, həm də risklərlə doludur. Dayanıqlı inkişaf yalnız siyasi sabitlik, yerli iştirakçılıq və ətraf mühitin qorunması əsasında mümkündür.

https://doi.org/10.36719/2789-6919/2025/XIV

## Ədəbiyyat

1. Çevre, Şehircilik ve İklim Değişikliği Bakanlığı. (2024). *İqlim Dəyişikliyi və Sahil Bölgələri Hesabatı*. https://csb.gov.tr
2. Erdoğan, E. (2023). *Türkiyədə Turizmin İnkişaf Prosesi və Siyasi Amillərin Təsiri*. Nobel Yayınları.
3. European Commission. (2024). *Avropa İttifaqı–Türkiyə Münasibətləri: Ticarət, Miqrasiya və Turizm*. Brüssel: EC Reports. https://ec.europa.eu
4. Global Risk Insights. (2024). *Türkiyənin Siyasi Risk Perspektivi 2024–2025*. https://globalriskinsights.com
5. T.C. Kültür və Turizm Bakanlığı. (2022). *Türkiyə Turizm Strategiyası 2023–2028*. https://www.ktb.gov.tr
6. Türkiye İstatistik Kurumu (TÜİK). (2024). *2020–2024 Turizm Statistikaları İlliyi*. https://data.tuik.gov.tr
7. United Nations World Tourism Organization (UNWTO). (2023). *Turizm və Siyasi Sabitlik: Qlobal Baxış*. Madrid: UNWTO.
8. World Bank. (2023). *Siyasi Gərginlik Şəraitində Davamlı Turizm İnkişafı*. Vaşinqton, DC: Dünya Bankı.

*Elm və Təhsilin Əsasları* XIV Beynəlxalq Elmi Konfrans
01 iyul 2025 / 69-72
*Fundamentals of Science and Education* XIII International Scientific Conference
01 july 2025 / 69-72
https://doi.org/10.36719/2789-6919/2025/XIV

# TƏBİƏT ELMLƏRİ
# NATURAL SCIENCES

**Gumru Balakhanova**
Azerbaijan State Pedagogical University
PhD in Biology
https://orcid.org/0000-0002-1709-1442
19_bq_91@mail.ru

# The Impact Of Urbanization And Climate Change On The Prevalence Of Fungal Diseases In Human

***Keywords:*** *urbanization, climate change, fungal infections, public health, mycoses, pathogenic fungi*
***Açar sözlər:*** *urbanizasiya, iqlim dəyişikliyi, göbələk infeksiyaları, ictimai sağlamlıq, mikozlar, patogen göbələklər*

In recent decades, rapid population growth and urbanization have significantly altered human life, intensifying environmental pollution, overloading infrastructure, and worsening hygiene-conditions that facilitate the spread of infectious diseases, including fungal infections. Simultaneously, climate change-manifested by rising temperatures, increased humidity, and extreme weather-has expanded the habitats of pathogenic fungi, allowing them to affect new regions and larger populations.

Fungal infections are especially dangerous for individuals with weakened immune systems and are increasingly linked to urban living conditions such as damp indoor environments, poor nutrition, stress, and limited physical activity. Given these risks, the rising prevalence of fungal infections driven by urbanization

https://doi.org/10.36719/2789-6919/2025/XIV

and climate change has become a critical concern in both medicine and ecology. This study aims to analyze these combined effects and propose effective solutions to mitigate the spread of fungal diseases. Urbanization and climate change are key global challenges affecting both ecosystems and human health. In recent decades, the rise in global temperatures and rapid urban growth have contributed to the wider spread of fungal infections, which were once limited to tropical regions but are now emerging worldwide.

These infections particularly threaten immunocompromised individuals, putting pressure on healthcare systems and requiring improved diagnostics and treatments. Climate-driven shifts in fungal habitats demand urgent scientific and medical responses. International organizations, including the WHO, stress the need for expanded research and public awareness in this area. Understanding the connection between urbanization, climate change, and the spread of fungal diseases is crucial for developing effective preventive strategies and protecting public health. The aim of this study is to investigate the impact of widespread urbanization and climate change on human health, particularly the spread of fungal infections. The research scientifically evaluates the influence of both ecological and social factors specific to urban environments, as well as climate-related factors such as increasing temperature and humidity.

The main objectives include identifying the causes of fungal infection transmission, examining the effects of climate change on pathogenic fungi, analyzing the role of lifestyle factors, and proposing preventive measures. Based on the findings, recommendations are provided for public health and environmental policy. In this regard, the study is both scientifically and practically significant, contributing to public health protection and potentially serving as a basis for more

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

extensive future research in the field. The object of this research is the population living in urban environments and their level of exposure to fungal infections. Additionally, the main ecological and climatic factors affecting the spread of infections are a central focus. Factors such as population density, sanitation and hygiene conditions, and air and water pollution, alongside increased temperature and humidity, have been analyzed. The study also considers the comparison of infection risk between urban and suburban areas, the susceptibility of different age and risk groups, and the conditions for the spread of fungal spores in living environments such as hospitals, schools, and buildings. Thus, the research investigates a complex system encompassing both biological (microorganisms and the human body) and socio-ecological (urbanization and climate) factors.

This study employed a combination of literature review, statistical analysis, and expert observation to examine how urbanization and climate change influence fungal infections. Comparative and correlation methods were used to assess the relationship between infection rates, climate conditions, and urban density. This multifaceted approach ensured comprehensive and scientifically reliable results.

This study, based on data from WHO, Azerbaijan's Ministry of Health, and international sources, showed that fungal infections are more prevalent in urban areas with high humidity, population density, and poor sanitation. Climate change further disrupts soil and vegetation microbiota, enabling wider fungal spread. At-risk groups include the elderly, children, and chronically ill. These insights highlight the urgent need for preventive strategies and public education. This research confirms that urbanization and climate change are key drivers in the spread of fungal infections. Overcrowding, poor hygiene, and humid indoor environments, combined with rising

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 69-72**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 july 2025 / 69-72**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

temperatures and humidity, create ideal conditions for fungal growth and transmission.

These factors also weaken immune defenses, especially among the elderly, children, and chronically ill. To counter this threat, it is crucial to improve hygiene, raise awareness, promote healthier lifestyles, and implement climate action measures that will enhance both individual and public health.

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 73-74**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 july 2025 / 73-74**
**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

**Nailə Əliyeva**
Naxçıvan Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0006-5219-8727
naileeliyeva280@gmail.com
**Məhəmməd Quliyev**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0004-3858-1004
mquliyev.ordubad92@gmail.com

# Culfa maili düzənliyinin landşaftlarının tədqiqinə dair

***Açar sözlər:*** *maili düzənlik, landşaft, ekoloji problem, antropogen təsir*
***Keywords:*** *inclined plain, landscape, ecological problem, anthropogenic impact*

Naxçıvan MR-in Arazboyu düzənliklərindən biri olan Culfa maili düzənliyi şimalda Darıdağın cənub ətəkləri, cənubda Araz çayı sahili, şərqdə Yaycı düzü, qərbdə isə Əlincə çayın aşağı axınının sol sahili ilə əhatələnir. Duzənliyin orta hündürlüyü 800-1300 m arasında tərəddüd edir. Geniş bir ərazini əhatə edən Culfa düzü zəif parçalanmışdır. Düzənliyin dağ ətəyinə yaxın şimal və şimal-şərq hissələrində prollüvial, aşağı hissələrində isə allüvial cöküntülər inkisaf etmisdir. Prollüvial çöküntülər Daridağ yaylasının cənub ətəklərindən başlayan yarğanlarda vaxtaşırı gələn daşlı-palçıqlı sellərin təsirindən yaranır. Culfa maili düzənliyinın cənub və cənub-qərb hissəsində isə Araz və Əlincə çaylarının gətirdiyi allüvial çöküntülər geniş yayılıbdır.

**https://doi.org/10.36719/2789-6919/2025/XIV**

Bu çayların sahillərində qədim çay terrasları inkişaf etmişdir. Gülüstan kəndi yaxınlığında maili düzənliyin səthi alçalır.

Culfa maili düzənliyində boz torpaqlar üzərində yovşanlıq landşaftı geniş yayılmışdır. Bu landşaftın əsas bitkisi yovşandır. Həmçinin, gəvən bitkiləri də geniş yayılmışdır. Əsasən qış otlağı kimi istifadə edilir. Otlaqların müəyyən hissəsində zərərli bitkilər çox inkişaf etmişdir. Onlar torpaqda olan suyu və qida mənbələrini mənimsəyir, qiymətli yem bitkilərini sıxışdıraraq daha çox sahədə yayılırlar. Culfa maili düzənliyində gillicəli torpaqlar üzərində yovşan və efemer bitkiləri yayılıbdır. Bunlardan başqa kəngiz kolları, şoran bitkiləri, taxılkimilər, çılpaq gəvən cənub - qərb hissədə çayır çəmənlikləri, tikanlar və s. yayılmışdır. Cənub istiqamətində kolluqlar azalır, efemer bitkiləri isə tədricən artır. Son vaxtlara qədər əsasən qış otlağı kimi istifadə olunan Culfa maili düzənliyindən əkin sahəsi kimi az istifadə olunmuşdur. Bunun da əsas səbəbi ərazidə suvarma suyunun çatışmaması və düzənliyin bəzi sahələrinin daşlarla örtülü olmasıdır. Ancaq otlaq kimi istifadə olunan Culfa düzünə Arazdan su çıxarılmış və əkin sahələri genişlənmişdir.

Culfa maili düzənliyində əkinçiliyin inkişaf etdirilməsi antropogenləşməni daha da sürətləndirmişdir. Əkinçiliyin inkişafı ilə əlaqədar olaraq bəzi sahələrdə bataqlıqlaşma və şoranlaşmalar baş vermişdir. Bunlar isə kənd təsərrüfatına yararlı torpaq sahələrini istehsal dövriyyəsindən çıxaran əsas amildir. Bütün bunları nəzərə alaraq, Araz çayı hövzəsinə aid iqlim şəraitində duzlu-şoran və gilli-gillicəli torpaqlar üzərində dağətəyi maili düzənliklərdə ot bitkilərindən məhrum, ağac və seyrək kollu, gilli, daşlı-qumlu yarımsəhra-səhra landşaftlarının mövcud olduqlarını deyə bilərik.

Landşaftların yenidən əsaslı tədqiqinə ehtiyac vardır.

*Elm və Təhsilin Əsasları* **XIV Beynəlxalq Elmi Konfrans**
**01 iyul 2025 / 75-77**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 july 2025 / 75-77**
